

**Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**
**Ümummilli Lider HEYDƏR ƏLİYEV**

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti
31 avqust 2021-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**BDU rektorunun vaksinasiya ilə bağlı Universitet kollektivinə və təhsil alanlara müraciəti**
→Səh.5

**Mənim doğma Universitetim**
→Səh.6

**Azərbaycan mediası özünün inkişaf tarixində yeni mərhələyə qədəm qoyur**
→Səh.7

**BDU kollektivi şəhid məzunun ailəsini ziyarət edib**
→Səh.8

**BDU İsrailin Holon Texnologiya İnstitutu ilə birgə bakalavr hazırlayır**
→Səh.9

**"Nizami Gəncəvi İli" çərçivəsində silsilə tədbirlər keçirilir**
→Səh.11

**Üzeyir Hacıbəylinin mətbuata dair nəzəri fikirləri**
→Səh.13

**Tələbə Gənclər Təşkilatı dil təlimlərinə başlayıb**
→Səh.15

**12 avqust - Beynəlxalq Gənclər Günüdür**
→Səh.16



**Bakı Dövlət Universiteti və "PAŞA Həyat Sığorta" arasında əməkdaşlıq sazişi imzalanıb**
→Səh.3



**BDU-nun rektoru Azərbaycanın Belarusdakı səfiri ilə görüşüb**
→Səh.4



**Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyi qeyd olunur**
→Səh.4



**Tələbələrimiz Ağdam şəhərinə təşkil olunan səfərdə iştirak ediblər**
→Səh.8



**BDU-da "Nizami dünyası" kompozisiyası nümayiş olunub**
→Səh.11



## İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar

***Avqustun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar. Dövlətimizin başçısı və birinci xanım Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağda inşa olunacaq tunelin təməlini qoyub, Kəlbəcər Kiçik Su Elektrik Yarımstansiyasında görülən işlərlə tanış olublar. Daha sonra 110/35/10 kilovoltluq "Kəlbəcər" yarımstansiyasının açılışını ediblər.***

Səfər çərçivəsində dövlətimizin başçısı Kəlbəcər-Laçın avtomobil yolu üzərində inşa olunacaq tunelin və Laçın Beynəlxalq Hava Limanının təməlini qoyub.

Daha sonra Prezident İlham Əliyev Kəlbəcər şəhərində dövlət bayrağını ucaldıb və burada çıxış edib.

Sonra Prezident İlham Əliyev Kəlbəcər şəhərindəki N saylı hərbi hissədə yaradılan şəraitlə tanış olub. Kəlbəcərə səfəri zamanı dövlətimizin başçısı "İstisu" sanatoriyasında da olub, Kəlbəcər-Laçın rayonunun Minkənd yolunun çəkilməsi işlərinə baxıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ömər aşırımından Kəlbəcərin füsunkar mənzərəsini seyr etdilər.

Prezident İlham Əliyev: Yolumuz Kəlbəcərədir, işğaldan azad edilmiş Kəlbəcərə. Ömər aşırımından keçərək Kəlbəcərə gedirik. Bu yol son bir neçə ay ərzində genişləndirildi. Çünki bu yol demək olar ki, keçilməz idi. İndi yol boyunca tunellər tikilir. Tunellər tikiləndən sonra gediş-gəliş çox rahat olacaq. Amma hələlik biz bu yoldan istifadə edirik və bu gözəl mənzərələr də göz oxşayır. Kəlbəcərin mənzərələri indi daha da gözəldir. İndi yolumuza davam edirik. Bu aşırımın hündür hissəsində dayanaraq bir daha Azərbaycan xalqını tarixi Zəfər münasibətilə təbrik etmək istəyirəm.

Müharibədən sonra Kəlbəcərə ilk səfərimdir. Bir neçə tədbir nəzərdə tutulur. Kəlbəcərin bərpası, yenidən qurulması prosesinə start veriləcəkdir.

Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!

***

***Kəlbəcərə gedərkən avtomobildən çəkilən videogörüntüdə Prezident İlham Əliyev deyir:*** Mehriban xanım Kəlbəcərin gözəl mənzərəsini çəkir və yol boyunca Azərbaycanın gözəl təbiətini seyr edirik. Əminəm ki, bu, kadrlara baxanlar üçün də çox maraqlı olacaq. Artıq Kəlbəcərin meşələri də göründü. Bildiyimiz kimi, Kəlbəcərin çox füsunkar təbiəti var – dağlar, dərələr, meşələr.

Baxın bu dağıntılara. Ermənilər Kəlbəcəri tərk edərkən buraları dağıdıblar. Bütün binaları, su elektrik stansiyalarını, hamısını dağıdıblar. Bu dağıntılar erməni vəhşiliyinin növbəti təzahürüdür.

Ermənilər tərəfindən dağıdılmış evlər. Bura Zallar kəndinin ərazisidir.

*(Ardı 2-si səhifədə)*






*BDU-nun rektoru "Gənc istedadlar" liseyini medalla bitirən məzunlarla görüşüb*

# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar

*(Əvvəli 1-si səhifədə)*

***Dövlətimizin başçısı və birinci xanım Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murov dağında inşa olunacaq 11.6 kilometrlik tunelin təməlinin qoyulması mərasimində iştirak etdi.***

Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolunun layihə uzunluğu 81 kilometr təşkil edir. Dövlət başçısının tapşırığına əsasən avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 2-4 hərəkət zolaqlı olmaqla 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir. Layihənin 16 kilometrlik hissəsindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1900 metrdən Murovdağ zirvəsinədək 3260 metrə qədər artır. Ərazinin çətin relyefi və təhlükəsizlik məsələləri nəzərə alınaraq Murovdağ silsiləsinin altından 11.6 kilometrlik tunelin tikintisi məqsədəuyğun hesab edilib.

Dövlətimizin başçısı tunelin təməlini qoydu.

***

***Prezident İlham Əliyev dedi: Durduğumuz yol ermənilər tərəfindən çəkilmiş Basarkeçar-Kəlbəcər yoludur. Onlar Ermənistanı Qarabağla birləşdirmək üçün ikinci yol çəkdilər.*** Laçın dəhlizindən əlavə. Beləliklə, Kəlbəcəri və digər əraziləri məskunlaşdırmaq və özlərinin gediş-gəlişini daha rahat etmək üçün bu yolu çəkdilər. Bu yol birbaşa Basarkeçar rayonuna gedir. Basarkeçar rayonuna Ermənistanda "Vardenis rayonu" deyilir. Ancaq bu rayonun, bölgənin əsl adı Basarkeçərdir, Göyçə mahalıdır, qədim Azərbaycan torpağıdır. 1930-cu ildə Basarkeçar rayonu Ermənistan ərazisində yaradılıb. Orada yaşayanların da mütləq əksəriyyəti azərbaycanlılar olmuşdur. O cümlədən, Zod kəndinin sakinləri də azərbaycanlılar idi, deportasiyaya məruz qalmışlar. Yalnız 1969-cu ilin iyun ayında Ermənistan Basarkeçar rayonunu, onun adını dəyişdirərək ona "Vardenis" adı qoymuşdur. Xahiş edirəm ki, Azərbaycanda bu bölgə ilə bağlı reportajlar hazırlayan və ümumiyyətlə, bizim ümumi leksikonumuzda "Vardenis" yox, Basarkeçar adı bərpa edilsin. İndiki Ermənistan ərazisində yerləşən bütün digər qədim Azərbaycan yaşayış məntəqələri əsl adları ilə də çağırılmalıdır. Misal üçün, Naxçıvan-Ermənistan sərhədində mövcud olan gərginliklə bağlı mən indi mətbuatı izləyirəm. Bizim mətbuatda yazılıb ki, Ermənistanın "Yerasx" kəndində, onun ətrafında hansı hadisələr baş verir. Bu kəndin adı Arazdəyəndir və azərbaycanlılar deportasiyaya qədər orada əbədi yaşayıblar. Ona görə bütün qədim, yeni tarixi adlar bərpa edilməlidir. Bu adlar bizdə müxtəlif




kitablarda da öz əksini tapıb. Ona görə xahiş edirəm ki, həm jurnalistlər, həm ümumiyyətlə, insanlarımız bu yerlərin əsl adlarını çəksinlər - Vardenis yox, Basarkeçar rayonu, Basarkeçar şəhəri.

Biz indi bu yoldan istifadə edirik. Ermənilər üçüncü yolu da çəkmək istəyirdilər - Cəbrayıla gedən yol. Bu haqda müharibə zamanı dəfələrlə öz fikirlərimi bildirmişdim və beləliklə, Ermənistanı Şərqi Zəngəzurla və Qarabağla üç yolla birləşdirmək istəyirdilər. Bunun yeganə məqsədi qanunsuz məskunlaşma siyasəti aparmaqdı və bu da hərbi cinayət sayılır. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan beynəlxalq qurumlar, ilk növbədə, ATƏT-in Minsk qrupu buna laqeyd yanaşmışdır, Ermənistana heç bir irad tutmamışdır, onları bu işlərdən çəkindirməyə cəhd etməmişdir, sadəcə olaraq, müşahidəçi kimi bunu müşahidə edirdi. Onlar, hətta bu yolda da olublar, onu da görüblər və Cəbrayıl rayonunda nəzərdə tutulmuş yolun inşasına da etiraz bildirməmişdilər. O vaxt bu yol çəkiləndə biz etirazımızı bildirmişdik. Biz səsimizi qaldırmışdıq, biz demişdik ki, buna yol vermək olmaz, Azərbaycan ərazisində qanunsuz işlər aparıla bilməz. Ancaq bizi eşidən yox idi. Amma bu gün mən gəlmişəm, həmin yolun üstündə durmuşam və biz bu yolda bundan sonra əbədi qalacağıq, bu bölgədə əbədi yaşayacağıq.

Bu da gözəl Kəlbəcər dağları, hər tərəf dağ, çay, meşə, cənnətməkan. Cənnətə də çevriləcəkdir.

***

***Prezident İlham Əliyev: Qamışlı kəndi. Burada bizim enerji infrastrukturumuz yaradılıb və bu yüksəkgərginlikli xətlər bu yaxınlarda çəkilib.***

Bu asfalt yolu da ermənilər Basarkeçərdən çəkiblər. Kəlbəcərə getmək üçün Laçın dəhlizinə alternativ bir yol çəkmişdilər. Görün, gözəl də yoldur. İndi biz bu yoldan istifadə edirik. Bu yol çəkiləndə Azərbaycan tərəfi buna ciddi etiraz etmişdi. Deyirdik ki, buna yol vermək olmaz. Bu, ermənilərin məskunlaşma siyasətinin bir hissəsidir. Ancaq bizi eşidən olmadı. Nəticədə biz gəldik, bayrağımızı qaldırdıq. Düşməni torpağımızdan qovduq və indi bu yoldan istifadə edirik. Ermənilər isə bu yoldan məhrum oldular. Ona görə bu yolu da hərbi qənimət saymaq olar. Onlar üçüncü yolu da Cəbrayıldan salmaq istəyirdilər. O da yarımçıq qaldı. Onların arzuları gözlərində qaldı.

Bizim evlər - azərbaycanlıların ermənilər tərəfindən dağıdılmış evləri. Ermənilər 30 il ərzində bizim torpaqlarımızı ancaq istismar edirdi, təbii sərvətləri talayırdı, evləri dağıdırdı, sökürdü. Sonra da deyirdi ki, bura erməni torpağıdır. Bura heç vaxt erməni torpağı olmayıb və bundan sonra heç vaxt olmayacaq. Bu, Azərbaycan torpağıdır. Biz azərbaycanlılar - bu torpaqların sahibləri qayıtmışıq. Düşməni torpağımızdan qovaraq, düşmən ordusunu məhv edərək, qəhrəmanlıq, fədakarlıq göstərərək qayıtmışıq.

Biz indi "Kəlbəcər-1" Su Elektrik Stansiyasının yerinə gəlmişik.

***

***Sonra Prezident İlham Əliyev Kəlbəcər Kiçik Su Elektrik Stansiyasında görülən işlərlə tanış oldu.***

Hazırda Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyası tamamilə yenidən qurulur, stansiyanın maşın zalı, aqreqatı, generatoru, idarəetmə panelləri, transformatorları yenilənir. Suyu hidroaqreqata ötürən dağıdılmış plastik su borusu 1,3 kilometr məsafədə diametri 1,8 metr olan metal borularla əvəz edilir. Stansiyanın maşın zalı və 110/6 kilovoltluq yarımstansiyasında isə işlər tamamlanıb. Beləliklə, ermənilər tərəfindən dağıdılaraq yandırılan "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyası tam yenidən tikilir və işlərin qarşıdan gələn aylarda başa çatdırılması planlaşdırılır.

Prezident İlham Əliyev: Lev çayı bizim gözəl çaylarımızdan biridir. Uzunluğu o qədər də böyük deyil – təxminən 20 kilometrə yaxındır. Ancaq mənbəyi Azərbaycandadır və bu gündən elektrik enerjisi istehsalına xidmət edəcək.

***

Prezident İlham Əliyev: Bura da "Kəlbəcər" yarımstansiyasıdır. Qısa müddətdə - cəmi altı ay ərzində inşa edilib və Kəlbəcəri elektrik enerjisi ilə təmin edəcək.

***

***Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının açılışında iştirak etdilər.***

Dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərin ən qısa vaxtda Azərbaycanın ümumi enerji sisteminə qoşulması, bu ərazilərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məsələsinə xüsusi diqqətlə yanaşır. Bunun nəticəsidir ki, bu istiqamətdə işğaldan azad edilmiş bütün yaşayış məntəqələrində, o cümlədən Kəlbəcər rayonunda genişmiqyaslı işlər həyata keçirilib. 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının qısa müddətə inşası həyata keçirilən layihələrdən biridir.

Kəlbəcər rayonunun Qamışlı kəndi ərazisində müasir avadanlıqlarla təchiz olunaraq inşa edilən yeni yarımstansiyada 80 MVA gücündə yeni transformatorlar quraşdırılıb. Yarımstansiyada 110 kilovoltluq açıq, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular yaradılıb. "Kəlbəcər" yarımstansiyası məsafədən idarəolunan SCADA Dispetçer İdarəetmə sisteminə qoşulub və bunun üçün yeni idarəetmə binası tikilib. Burada ən yeni rəqəmsal texnologiyalardan istifadə edilib.

Dövlətimizin başçısı yarımstansiyanı işə saldı.

Qeyd edək ki, ermənilər tərəfindən enerji sistemi tamamilə dağıdılan Kəlbəcər rayonuna Daşkəsəndən 70 kilometr məsafədə 110 kV-luq yüksəkgərginlikli ikidövrəli elektrikötürmə xətti çəkilib. Murov dağını aşmaqla çəkilən xəttin bəzi anker dayaqları dəniz səviyyəsindən 3400 metr yüksəklikdə quraşdırılıb.

***

***Sonra Lev çayının sahilində çay süfrəsi arxasında söhbət edən Prezident İlham Əliyev dedi:***

-Kəlbəcər rayon yarımstansiyasının açılışını etdik. Çox əlamətdar hadisədir. Kəlbəcər rayonunun elektrik enerjisi ilə təchizatı üçün bunun çox böyük əhəmiyyəti var və deyə bilərəm ki, cəmi altı ay ərzində bu yarımstansiya ərsəyə gəldi. Özü də çox çətin bir hava şəraitində, çətin relyefdən, dağlardan keçərək, bu önəmli infrastruktur obyektini istifadəyə verdik. Yeni dirəkləri də görürsünüz. Dirəklərin ən hündür olan yeri 3400 metrdir. Doğrudan da böyük peşəkarlıq və məharət tələb edən layihədir və onu göstərir ki, bizim daxili resurslarımız o qədər güclüdür ki, biz qısa müddət ərzində bu işləri görə bilərik. Beləliklə, bu yarımstansiya Kəlbəcər rayonunu elektrik enerjisi ilə təchiz edəcək. Bu tədbirə qədər Lev çayı üzərində su elektrik stansiyasının tikintisi ilə tanış oldum. Orada generasiya gücü 4,4 meqavatdır. Biz artıq Güləbird Su Elektrik Stansiyasını işə saldıq, orada 8 meqavatdır, o, Laçın rayonundadır. Suqovşan Su Elektrik Stansiyası da təmir olundu, yenidən quruldu, orada da 7,8 meqavatdır. Yəni, görün, biz artıq 20 meqavatdan çox elektrik enerjisini alternativ mənbələrdən hasil etməyə başlayırıq və bu hələ başlanğıcdır. Ermənilər bu bölgələri tərk edərkən bütün su elektrik stansiyalarını məhv etdilər, dağıtdılar. Biz onları bərpa edəcəyik. Güləbird, indi isə Lev çayı üzərində və digər su elektrik stansiyaları və onların sayını tədricən 20-yə çatdıracağıq, bəlkə də 30-a çatdıracağıq, amma tədricən. Beləliklə, bizim enerji potensialımız da güclənəcək. Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonası kimi yaşayacaq və bizim bütün planlarımız yerinə yetiriləcək. Cəmi 7-8 ay ərzində bu qədər işin görülməsi bizim gücümüzü göstərir, əzmkarlığımızı göstərir, güclü siyasi iradəni göstərir.

Bu gün biz Lev çayının kənarında çay içəcəyik armudu stəkanda. Bu, onu bir daha göstərir ki, nə qədər ermənilər çalışsalar da bizim xalqımızın iradəsini qıra bilmədilər. Biz buraya qayıtmalı idik və qayıtdıq. Onlar buradan getməli idilər və getdilər. Tarixi ədalət bərpa olundu və biz ölkəmizin bəlkə də ən gözəl rayonlarından biri olan Kəlbəcərə nəinki qayıtmışıq, Kəlbəcərin inkişafı ilə bağlı artıq planlarımızı reallaşdırırıq. Bundan sonra da tədbirlər olacaq. Hələlik isə çayımızı içək və təbiətdən zövq alaq. Yaşasın Azərbaycan!

***Mənbə: Prezident.az***

# BDU-nun rektoru “Gənc istedadlar” liseyini medalla bitirən məzunlarla görüşüb








***Avqustun 3-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev BDU-nun nəzdində “Gənc istedadlar” liseyini qızıl və gümüş medalla bitirmiş məzunlarla görüşüb.***

Rektor Elçin Babayev liseydə təhsillərini müvəffəqiyyətlə başa vurmaları və medallara layiq görülmələri münasibətilə məzunları təbrik edib, gələcək təhsillərində uğurlar arzulayıb. BDU-nun nəzdində “Gənc istedadlar” liseyində şagirdlərin hərtərəfli biliklərə yiyələnməsi üçün yaradılmış şəraitdən, lisey şagirdlərinin Respublika və dünya olimpiada və müsabiqələrində əldə etdikləri nəticələr haqqında söz açıb. Bildirib ki, bu il liseyi 11 nəfər - 9 nəfər qızıl, 2 nəfər gümüş medalla bitirir. “Gənc istedadlar” liseyi ölkə üzrə məzunları ən çox medala layiq görülən üçüncü məktəbdir.

2020/2021-ci tədris ilində “Sabahın alimləri” onuncu Respublika müsabiqəsində liseyin 21 şagirdi Kompüter elmləri, Kimya, Riyaziyyat, Fizika və astronomiya, Biologiya, Ekologiya, ətraf mühitin idarə olunması kimi sahələr üzrə müxtəlif mövzularda layihələrlə çıxış edib, 3 layihə 1-ci yerə, 5 layihə 2-ci yerə, 3 layihə 3-cü yerə və 1 layihə isə xüsusi mükafata layiq görülüb. Liseyin 10-cu sinif şagirdi Nəriman Şirinli məktəblilərin 53-cü Beynəlxalq Kimya Olimpiadasında (IChO) bürünc medala layiq görülüb.

Daha sonra BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev, “Gənc istedadlar” liseyinin direktoru Arif Bağırov, direktor müavini Rəfiyyə Cəbrayılova çıxış edərək məzunlara uğurlar arzulayıblar.

Görüşün sonunda rektor liseyi medalla bitirmiş məzunlara təşəkkürnamə və hədiyyələr təqdim edib.

# Bakı Dövlət Universiteti və “PAŞA Həyat Sığorta” arasında əməkdaşlıq sazişi imzalanıb



***Avqustun 23-də Bakı Dövlət Universiteti və “PAŞA Həyat Sığorta” ASC arasında gənclərin peşəkar inkişafı istiqamətində tədbirlərin təşkilinə dair əməkdaşlıq sazişi imzalanıb.***

Saziş tərəflərin fəaliyyət sahələri və səlahiyyətləri çərçivəsində birgə əməkdaşlıq məsələlərini əhatə edir. Təhsil sahəsində qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və inkişaf etdirilməsi, BDU tələbələrinin təhsil keyfiyyətinin və peşə fəaliyyətinin yaxşılaşdırılması, bu istiqamətdə sıx inteqrasiyanın təmin edilməsi üzrə səylərin birləşdirilməsi məqsədini daşıyır. Eyni zamanda, BDU-nun tələbə kontingenti üçün “PAŞA Həyat Sığorta” tərəfindən müxtəlif istiqamətlərdə bilik mübadiləsi sessiyalarının, tələbələr üçün sınaq iş müsahibələrinin keçirilməsi, istehsalat və ya könüllü təcrübə proqramlarının təşkil olunması və “PAŞA Həyat Sığorta” əməkdaşlarının BDU-da qonaq spiker qismində çıxış etməsi, habelə zərurət olduqda onların tədris fəaliyyətinə cəlb edilməsi planlaşdırılır.

Sazişdə “PAŞA Həyat Sığorta” tərəfindən müəyyənləşdirilmiş kateqoriyalara məxsus tələbələrin sertifikasiya və ya digər təhsil xərclərinə sponsorluq edilməsi, BDU tərəfindən irəli sürülən layihələrə birgə dəstəyin verilməsi və tələbələrin peşə təcrübəsinin artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi öz əksini tapır. Əməkdaşlıq sazişində BDU tələbələrinin “PAŞA Həyat Sığorta”nın təşkilatçılığı ilə şirkətin ofis binasına və ya başqa məkanlara turların, habelə digər informativ ekskursiyaların, müxtəlif müsabiqələrin təşkil edilməsi də nəzərdə tutulur.

Əməkdaşlıq sazişini Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev və “PAŞA Həyat Sığorta” ASC-nin İdarə Heyətinin sədri Niyaz İsmayılov imzalayıblar. Saziş müddətsiz olaraq bağlanılıb.

Qeyd edək ki, ölkəmizdə lider sığorta şirkəti olan “PAŞA Həyat Sığorta” ASC 2010-cu ilin noyabr ayından fəaliyyət göstərir. 2020-ci il dekabrın 31-də şirkətin nizamnamə kapitalı 40,250 mln. manat təşkil etmişdir. Şirkət müştərilərə müxtəlif həyat sığortası məhsulları, o cümlədən “İstehsalatda bədbəxt hadisələrin icbari sığortası”, “Yığım tərkibli yaşam sığortası” məhsullarını təklif edir.

# Rektor Olimpiya mükafatçısı Hacı Əliyevlə görüşüb



***Avqustun 16-da Bakı Dövlət Universitetin rektoru Elçin Babayev BDU-nun Hüquq fakültəsinin 2021-ci il məzunu, Azərbaycanın sərbəst güləşçisi, Tokio-2020 Yay Olimpiya Oyunlarında ölkəmizə gümüş medal qazandıran Hacı Əliyevlə görüşüb.***

Rektor Elçin Babayev ölkəmizi beynəlxalq arenada layiqincə təmsil etdiyinə, olimpiadada əldə etdiyi yüksək nəticəyə görə Hacı Əliyevi təbrik edib. Görüşdə rektor ölkəmizdə idmanın inkişafına dövlət qayğısından söhbət açaraq Azərbaycanın dünyada artıq idman ölkəsi kimi tanındığını, ölkəmizdə olimpiya hərəkatının sürətlə inkişaf etdiyini bildirib. E.Babayev idmançı tələbənin nailiyyətlərini yüksək qiymətləndirərək, Azərbaycan bayrağını dəfələrlə yüksəklərə qaldırdığına görə H.Əliyevə təşəkkürünü bildirib, gələcək fəaliyyətində və peşəkar idman həyatında yeni uğurlar arzulayıb.

Hacı Əliyev göstərilən diqqətə, həmçinin dəyərli tövsiyələrinə, o cümlədən BDU-da təhsil alan gənc idmançılara göstərilən qayğıya görə rekror Elçin Babayevə təşəkkürünü bildirib.

Sonra rektor üççat dünya və üççat Avropa çempionu, Tokio-2020 Olimpiya oyunlarının gümüş mükafatçısı Hacı Əliyevə BDU-nun Fəxri Fərmanını, həmçinin onun ali təhsil haqqında diplomunu təqdim edib.

# Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyi qeyd olunur

***2021-ci ildə respublikamızın ilk ali pedaqoji təhsil ocağı olan Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) fəaliyyətə başlamasının 100 illiyi tamam olur.*** Azərbaycan Dövlət Pedaqoji Universiteti ölkəmizin tarixində xüsusi yer tutan, zəngin ənənələrə malik ali təhsil müəssisələrindəndir. Yarandığı gündən etibarən Universitet öz üzərinə düşən vəzifələri daim layiqincə yerinə yetirmiş, respublikamızda və eləcə də bir sıra digər ölkələr üçün pedaqoji kadr hazırlanması işini uğurla həyata keçirmişdir. Fərəhləndirici haldır ki, Azərbaycanın tanınmış ictimai, elm və mədəniyyət xadimləri arasında ADPU-nun çoxsaylı məzunları vardır. Ölkəmizin aparıcı təhsil ocaqlarından biri kimi Azərbaycan Dövlət Pedaqoji Universiteti müəllim hazırlığı sahəsində və pedaqoji təhsilin inkişafı istiqamətində bu gün də uğurlu fəaliyyəti ilə Azərbaycanda təhsilin inkişafına öz layiqli töhfəsini verməkdədir. Bu gün Universitetdə qabaqcıl təlim-tədris texnologiyalarından faydalanmaqla ali təhsilin məzmun və keyfiyyət göstəricilərinin yüksəldilməsi istiqamətində zəruri addımlar atılır.






Xüsusilə qeyd edilməlidir ki, ADPU-nun 100 illik tarixinin böyük bir mərhələsində (1969–1987-ci illər və 1993–2003-cü illər) qazanılan uğurlar bilavasitə xalqımızın Ümummilli lideri Heydər Əliyevin çoxşaxəli fəaliyyəti ilə bağlı olmuşdur. Ulu öndər Heydər Əliyev istər birinci dəfə ölkəmizə rəhbərlik etdiyi dövrlərdə, istərsə də müstəqillik illərində ADPU-ya daim yüksək diqqət və qayğı ilə yanaşmış, ADPU-nun 50 illik yubileyi ilə bağlı təntənəli yığıncaqda ölkənin ali mükafatı olan "Qırmızı Əmək Bayrağı" ordenini şəxsən Universitet kollektivinə təqdim etmişdir. Ulu Öndər hələ sovet Azərbaycanına rəhbərlik etdiyi vaxtlarda, 5 dəfə ADPU-nu ziyarət etmiş, Universitetin, onun kollektivinin qayğıları ilə yaxından maraqlanmış, bu təhsil məbədinin inkişafı üçün müvafiq tarixi qərarlar qəbul etmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 17 aprel tarixli Sərəncamı əsasında Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyi geniş miqyasda qeyd olunur. Sərəncama uyğun olaraq ADPU-nun 100 illik yubileyinin keçirilməsi ölkəmizdə elm və təhsilə, ömrünü gənc nəslin tərbiyəsinə, müstəqil Azərbaycanımız üçün mütəxəssislər ordusunun yetişdirilməsinə həsr etmiş insanların əməyinə göstərilən layiqli münasibətin təzahürüdür.

Təhsildə qloballaşma və beynəlmiləlləşmə faktorlarının mühüm əhəmiyyət kəsb etdiyi bir dövrdə, ADPU-nun xarici ölkə universitetləri ilə beynəlxalq əlaqələrinin qurulması, əməkdaşlığın yüksələn xətlə inkişafı 100 yaşlı Universitetin əsas prioritet istiqamətlərindən biridir. Bir çox xarici universitetlə əlaqələri olan ali məktəbin beynəlxalq əməkdaşlıq sahəsində son illərdəki böyük uğurları onu deməyə əsas verir ki, ADPU təkcə ölkəmizdə deyil, beynəlxalq müstəvidə qazandığı mühüm nailiyyətləri ilə Azərbaycan elminə və təhsilinə töhfəsini əsirgəmir.

Əminik ki, insan kapitalının formalaşdırılmasında müasir təhsil-tərbiyə texnologiyasına, əxlaqi və mənəvi saflığa, yüksək peşə və ixtisas bacarıqlarına malik müəllim kadrlarının hazırlığı, onların vətənpərvər və dövlətçiliyə sədaqət ruhunda tərbiyəsi istiqamətində 100 yaşlı Azərbaycan Dövlət Pedaqoji Universitetinin kollektivi bundan sonra da əzmlə çalışacaq, ölkəmizdə maarifçiliyin, elm və təhsilin davamlı inkişafında müstəsna xidmətlər göstərəcəkdir.

# BDU-nun rektoru Azərbaycanın Belarusdakı səfiri ilə görüşüb



***Avqustun 17-də Azərbaycan Respublikasının Belarus Respublikasında fövqəladə və səlahiyyətli səfiri Ülvi Baxşəliyev Bakı Dövlət Universitetində olub.***

BDU-nun rektoru Elçin Babayevin ölkəmizin Belarus Respublikasındakı səfiri Ülvi Baxşəliyevlə görüşündə Azərbaycan və Belarus arasında qarşılıqlı əlaqələrdən söz açılıb, hər iki ölkənin ali təhsil müəssisələri arasında əməkdaşlığın inkişafı imkanları müzakirə olunub.

Rektor ölkəmizin ən böyük ali təhsil müəssisəsi olan BDU-nun dünyanın bir sıra tanınmış universitetləri ilə sıx əməkdaşlıq etdiyi, qarşılıqlı təcrübə mübadiləsi apardığı haqqında məlumat verib, hazırda BDU-nun dünyanın 7 qabaqcıl ali təhsil müəssisəsi ilə ikili diplom proqramları üzrə birgə kadr hazırlığını həyata keçirdiyini qeyd edib. Belarus universitetləri ilə də qarşılıqlı təcrübə mübadiləsi aparılması, birgə elmi tədbirlərin keçirilməsi, elmi-tədqiqat işlərinin aparılması və s. istiqamətində işlər nəzərdə tutulub.

Səfir Ülvi Baxşəliyev Azərbaycan və Belarus arasında mədəni, elmi və təhsil əlaqələrinin zəngin tarixinin olduğunu bildirərək, gələcəkdə bu əlaqələrin inkişaf etdirilməsi üçün bütün imkanların olduğunu və səfirliyimizin bu məsələlərdə yardımçı olacağını qeyd edib.

# Təhsil İnstitutu və BDU "SABAH Magistratura" proqramını birgə təşkil edəcək

***Təhsil İnstitutu "SABAH Magistratura" proqramı çərçivəsində Bakı Dövlət Universitetinin kompüter elmləri və texnologiyaları ixtisaslaşması üzrə yeni məzmunun yaradılması və tətbiqi prosesini təşkil edəcək.***

Layihənin əsas hədəfi müasir əmək bazarı və cəmiyyətin tələblərinə uyğun, beynəlxalq rəqabətə davamlı peşəkar kadr hazırlığını təmin edəcək yeni məzmun və təlim infrastrukturunun yaradılmasını və dayanıqlığını stimullaşdırmaqdan ibarətdir. Təhsil İnstitutu ali təhsilin magistratura səviyyəsi üçün həyata keçirilən "SABAH Magistratura" layihəsi çərçivəsində BDU-da kompüter elmləri və texnologiyaları ixtisaslaşması üzrə 2021-2022-ci tədris ilindən başlayaraq bir sıra fəaliyyətləri təşkil edəcək. Bu fəaliyyətlər çərçivəsində məzmun hazırlığı, professor və müəllim heyətinin seçilməsi və təlimləndirilməsi, magistrantlar üçün öyrənmə və tədqiqata yönəlmiş dərsdənkənar fakültativ məşğələlərin təşkili və maddi-texniki təchizat nəzərdə tutulub.

Məzmun hazırlığı üzrə proqram konsepsiyası, təhsil proqramı, tədris planı, nümunəvi sillabus, tədris materialları və məqalələr toplusu şəklində dərs vəsaitləri hazırlanacaq, professor və müəllim heyətinin seçilməsi və təlimləndirilməsi üzrə universitetin mövcud professor-müəllim potensialı araşdırılacaq, universitetin daxilində müəllimlər arasında və yeni müəllimlərin seçimi aparılacaq, sənayedən cəlb olunmuş, pedaqoji təcrübəsi az olan mütəxəssislər üçün "Ali məktəb pedaqoqu" təlimi və tədris təşkil ediləcək. Bundan əlavə, magistrantlar üçün öyrənmə və tədqiqata yönəlmiş dərsdənkənar fakültativ məşğələlərin təşkili üzrə institutun "Tədqiqat meneceri" proqramı çərçivəsində "Tədqiqat metodları", "İnnovasiya strategiyası" və "Sistemli düşüncə təfəkkürü" modulları üzrə təlimlər aparılacaq, beynəlxalq "Təcrübə mübadiləsi" proqramına tələbələr cəlb olunacaq, "Karyerayönümlü" tədbirlər və "İş dünyası və ali təhsildə trendlər" seminar/vebinarları həyata keçiriləcək. Maddi-texniki təchizat dedikdə isə müvafiq ixtisaslaşma üçün maddi-texniki bazanın təmin edilməsi məqsədilə Təhsil İnstitutu tərəfindən kompüter laboratoriyası yaradılacaq.

Qeyd edək ki, layihə komandasına müvafiq sahə üzrə xaricdə təhsil almış azərbaycanlı gənc mütəxəssislər də cəlb olunublar.

# BDU rektorunun vaksinasiya ilə bağlı Universitet kollektivinə və təhsil alanlara müraciəti

***Hörmətli əməkdaşlar!***

***Əziz tələbələr, magistrantlar və doktorantlar!***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli 48s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na müvafiq olaraq Bakı Dövlət Universitetində (BDU) çalışan bütün əməkdaşların müvafiq qaydada vaksinasiya olunması işlərini sürətləndirmək üçün bir sıra tədbirlər həyata keçirilir.

Bu tədbirlər çərçivəsində BDU-nun təşəbbüsü və müraciəti əsasında cari ilin 15-21 aprel və 19-21 may tarixlərində BDU-nun ərazisində yerləşən 30 saylı şəhər poliklinikasında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) səyyar vaksinasiya məntəqəsi qurulmuş və əməkdaşların mütəşəkkil şəkildə COVID-19 infeksiyasına qarşı peyvənd olunması həyata keçirilmişdir.



Bununla yanaşı, BDU-nun əməkdaşları, tələbələri, magistrantları və doktorantları mütəmadi olaraq ərazi və sahə poliklinikalarında vaksinasiya prosesində iştirak etmişdir. Hazırda BDU-da çalışan bütün əməkdaşların müvafiq qaydada vaksinasiya olunması işlərini sürətləndirmək üçün tədbirlər (məlumatlandırma, maarifləndirmə, əlaqələndirmə və s.) davam etdirilir.

Həyata keçirilmiş tədbirlər nəticəsində BDU əməkdaşlarının böyük əksəriyyəti vaksinasiya olunmuşdur. Bir sıra əməkdaşlar isə COVID-19 xəstəliyinə yoluxaraq infeksiyaya qarşı antitel qazanmışdır.

"Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 may tarixli 151 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 iyul tarixli 229 nömrəli Qərarına əsasən, 2021-ci il 1 sentyabr tarixindən etibarən mülkiyyət formasından asılı olmayaraq bütün elm və təhsil müəssisələrinin işçilərinin (əmək və ya mülki müqavilələrlə işləməsindən asılı olmayaraq) azı 80 faizinin COVID-19-a qarşı birinci doza, 1 oktyabr tarixindən etibarən isə ikinci doza ilə peyvənd olunması və ya COVID-19-a qarşı immunitet sertifikatının olması, eyni zamanda 2021-ci il 1 sentyabr tarixindən etibarən ali və orta-ixtisas təhsili müəssisəsində təhsil alan yaşı 18-dən yuxarı olan bütün şəxslərin COVID-19 pasportunun olması tələb edilir.

Bütün bunları nəzərə alaraq BDU ailəsinin indiyədək peyvənd olunmayan hər bir üzvünü vaksinasiya prosesində daha fəal iştirak etməyə, müəllimlərimizi, inzibati-texniki heyətdə çalışan əməkdaşlarımızı və təhsilalanlarımızı qısa müddətdə vaksin olunmaqla COVID-19 pasportu əldə edərək ənənəvi təhsilə başlayacağımız günü birlikdə yaxınlaşdırmağa dəvət edirəm.

Unutmayaq ki, biz Qalib ölkənin qalib vətəndaşlarıyıq!

Biz birlikdə güclüyük və bu birlik və həmrəylik COVID-19 infeksiyasına qarşı mübarizə cəbhəsində də əldə edəcəyimiz qələbənin əsas güc mənbəyidir!

***Hörmətlə,***
***BDU-nun rektoru***
***Elçin Babayev***

***10 avqust 2021-ci il***

---

# BDU-nun xarici universitetlərə qəbul olunan məzunları

***Bakı Dövlət Universitetində bakalavr təhsillərini müvəffəqiyyətlə başa vuran tələbələrin bir çoxu təhsillərini xarici ölkələrin universitetlərində davam etdirəcəklər. Onlardan bir neçəsini sizə təqdim edirik.***

***Günel Həsənova*** BDU-nun Kimya fakültəsindən bu il məzun olaraq 14 xarici universitetə qəbul olunub. Bu universitetlərin sırasında İtaliyanın məşhur Bolonya, Sapienza, Milan, Genova, Ca foscari Venesia, Katania, Turin universitetləri kimi dünyada nüfuzlu ali təhsil müəssisələri var.

Günel Həsənova BDU-da təhsil aldığı müddətdə aktiv tələbələrdən biri olub. O, "İqlim dəyişikliyinin səbəbləri", "Gənclərin regional inkişafda rolu", "Təbiət dostları", "Alternativ enerji mənbələri" və s. layihələrə rəhbərlik edib. Həmçinin, bir sıra beynəlxalq seminar və təlimlərdə iştirak edib.

***Ümid Mahmudov*** Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin beynəlxalq əlaqələr ixtisasından bu il məzun olaraq Polşanın Marie-Curie Sklodowska Universitetinin eyni adlı ixtisası üçün ayrılmış iki "Tam təqaüd" proqramından birinin qalibi olub.

Ümid tələbəlik illərində Avropa Gənclər Parlamentinin Milli Universitet seçiminin qalibi olub və Avstriyanın Birinci Beynəlxalq EYP Forumunda ölkəmizi və BDU-nu təmsil etmək imkanı qazanıb. Bundan əlavə, BDU-nun Debat Klubuna üzv olaraq sözügedən klubun iki daxili turnirində komanda ilə birlikdə ardarda 2 çempionluq qazanıb.

***Salman Mirzəyev*** Geologiya fakültəsinin Geofizika mühəndisliyi ixtisasından bu il məzun olaraq İtaliyanın Politecnico di Torino Universitetinin neft və mədən mühəndisliyi ixtisası, Polşanın Varşava Texniki Universiteti geodeziya və kartoqrafiya ixtisası, Litvanın Kaunas Texnologiya Universiteti materialların fizikası ixtisası, Macarıstanın Miskolc Earth Universitetinin yer elmləri mühəndisliyi ixtisasına qəbul olunub.

***Amin Pənalıyev*** Hüquq fakültəsinin Hüquqşünaslıq ixtisasından bu il məzun olaraq Vilnius Universiteti və Tartu Universitetinə qəbul olunub.

***Murad Orucov*** Hüquq fakültəsinin Hüquqşünaslıq ixtisasından bu il məzun olaraq Yuta Universiteti və Şimal-şərq Universitetinə qəbul olunub.

***Kənan Abdullayev*** Hüquq fakültəsinin Hüquqşünaslıq ixtisasından bu il məzun olaraq Frankfurt Höte Universitetinin hüquq nəzəriyyəsi ixtisasına güzəştli təhsil haqqı ilə qəbul olunub. Həmçinin bu proqram üzrə təhsil alan ilk azərbaycanlı tələbə olacaq.

***Murad Abasov*** Hüquq fakültəsinin Hüquqşünaslıq ixtisasından bu il məzun olaraq Erasmus Rotterdam - Netherlands Universitetinə qəbul olunub.

***Günel Nəbisoy*** Tarix fakültəsindən bu il məzun olaraq Portuqaliyanın Evora Universitetinə qəbul olunub.

***Rəşad Umbayev*** Tarix fakültəsindən bu il məzun olaraq Almaniyanın Münhen Lüdviq-Maksimilian Universitetinə qəbul olunub.

***Xanbala Rəşidov*** Tətbiqi riyaziyyat və kibernetika fakültəsindən bu il məzun olaraq Türkiyənin Üsküdar, Bahçeşehir, İstanbul Kent, Ostim Texnik, İstanbul Gedik universitetlərinə qəbul olunub.

***Sahib Rəhimov*** Tətbiqi riyaziyyat və kibernetika fakültəsindən bu il məzun olaraq Ostim Texnik Universitetinə qəbul olunub.

***İbrahim Səfərzadə*** Tətbiqi riyaziyyat və kibernetika fakültəsindən bu il məzun olaraq WSB Universiteti və İqtisadiyyat və Humanitar Elmlər Universitetinə qəbul olunub.

***Dəyanət Salmanov*** Tətbiqi riyaziyyat və kibernetika fakültəsindən bu il məzun olaraq WSB, WSB Milli Luis, İqtisadiyyat və Humanitar Elmlər universitetlərinə qəbul olunub.

***Nəzrin Süleymanova*** Ekologiya və torpaqşünaslıq fakültəsindən bu il məzun olaraq Təhsil Nazirliyinin (HTP) Hökümətlərarası Təqaüd Proqramı olan - Stipendium Hungaricum proqramı ilə Macarıstanın Eötvöş Lorand Universiteti (ELTE), environmental Sciences ixtisası üzrə 100% təqaüdlə təhsili hüququ qazanıb.

***Ruslan Əliyev*** Ekologiya və torpaqşünaslıq fakültəsindən bu il məzun olaraq Türkiyənin İstanbul Texniki Universitetinə qəbul olunub.

***Bakı Dövlət Universitetinin tələbələrinin bu il qəbul olunduqları xarici universitetlərin siyahısını təqdim edirik:***

***İtaliyada;***

Bolonya Universiteti
Sapienza Universiteti
Milan Universiteti
Genova Univeriteti
Ca foscari Venesia Universiteti
Katania Universiteti

***Polşada;***

Varşava Texniki Universiteti
WSB Universiteti
WSB Milli Luis Universiteti
İqtisadiyyat və Humanitar Elmlər Universiteti
Marie-Curie Sklodowska Universiteti

***Litvada;***

Kaunas Texnologiya Universsiteti
Vilnius Universiteti

***Macarıstanda;***

Miskolc Earth Universiteti
Amerikada;
Yuta Universiteti
Şimal-şərq Universiteti

***Estoniyada;***

Tartu Universitetinə

***Almaniyada;***

Frankfurt Höte Universiteti
Münhen Lüdviq-Maksimilian Universiteti

***Niderlandda;***

Rotterdam-Netherlands Universiteti

***Portuqaliyada;***

Evora Universiteti

***Türkiyədə;***

Üsküdar Universiteti
Bahçeşehir Universiteti
İstanbul Kent Universiteti
Ostim Teknik Universiteti
İstanbul Texniki Universiteti

*Biz də tələbələrimizi təbrik edir və təhsillərində daha böyük uğurlara imza atmalarını arzu edirik.*

# Mənim doğma Universitetim

***Müəllimlərimdən birinin fikridir: "Universitet sözü müqəddəs məna daşıyır və bu söz mətnin bütün məqamlarında böyük hərflə yazılmalıdır". Özündə böyük məna daşıyan Universitet sözü mənim üçün də müqəddəs anlayışdır. Mən bu sözün müqəddəsliyini Bakı Dövlət Universitetində təhsil aldığım ilk günlərdən anladım. Jurnalistika fakültəsində oxudum. Bakalavr pilləsini, bundan dərhal sonra Magistraturanı bitirdim. Artıq iki ildir ki, mən bu Universitetin məzunuyam. Tələbəlik illərində faktı görmək, həyatı müşahidə etmək və bu müşahidələri çeşidli yazılara köçürmək işinin vacibliyini müəllimlərimiz bizə bildirdilər. Həyatın hər sahəsinə jurnalist baxışımız var. Və bu müşahidələr içərisində doğma Universitetimizin fəaliyyəti şəxsən mənim üçün hər bir faktdan daha maraqlı oldu.***




Bakı Dövlət Universitetinin 100 illik yubiley təntənəsi, əlbəttə, yüz ildən bir olacaq. Birinci yüz illik təntənəsinin qeyd olunması mənim də magistratura illərimin qisməti oldu. Müşahidə etdim ki, Azərbaycan xalqı özünün ilk ali təhsil ocağının-Bakı Universitetinin 100 illik yubileyini necə böyük qürur və sevgi hissi ilə qarşıladı. Azərbaycanın Prezidenti İlham Əliyevin bu yubileydəki təbrik nitqi müəllim və tələbələri-25 minlik kollektivi necə təsirləndirdi, Prezident bu tarixi nitqində gənc nəsli Vətəni daha dərindən sevməyə, yağı düşmənin işğal etdiyi torpaqlarımızı azad etmək üçün hər şeyə hazır olmağa səslədi. Sən demə Prezidentimizin ürəyində "Nəyi necə, nə zaman etməyi özüm bilirdim" kimi məlum fikri o vaxtdan yer alıbmış və o, gənclərimizi cəmi bir ildən sonra başlayacaq Vətən müharibəsinə indidən hazır olmağa çağırırmış. 100 illik yubileydən az sonra dünyanı bürüyən, çox-çox tədbirləri yarımçıq qoyan "Covid-19" pandemiyası başladı. Mənim doğma Universitetim bu çətin şəraitdə onlayn fəaliyyət formatına keçdi və sanki belə bir formata çoxdan hazırmış kimi tələbələrimizin təhsilini yüksək şəkildə davam etdirməsinə şərait yaratdı. Bakı Dövlət Universiteti müəllimlərin informasiya texnologiyasını onlayn formatı üçün tezliklə hazırladı və bu sahədə heç bir problem yaranmadı.

Mən bu zamanlar artıq Universiteti bitirmiş bir məzun idim və bundan sonrakı faktları, əsasən Universitetin saytından müşahidə etmişəm.

Pandemiya dövründə dünyanın bu sərt qərara qarşı apardığı müharibədə Azərbaycan xalqını bu bəladan qorumaq üçün dünyada ən tədbirli ölkələrdən biri oldu. Amma pandemiya müharibəsi az imiş kimi bədxah Ermənistanın Tovuz rayonu sərhədlərindən Azərbaycana hücumu bizi Vətən müharibəsinə təhrik etdi, 44 günlük Vətən müharibəsindəki şanlı qələbəmiz bütöv bir xalqın müzəffər ordumuzla, Ali Baş Komandanla birgəliyi nəticəsində oldu. Bu birgəlikdə Azərbaycan xalqının 100 ildən bu günə qürur mənbəyi olan

Bakı Dövlət Universitetinin də çox böyük rolu oldu. Mənim Universitetimin neçə-neçə illər əvvəlin məzunları, bu günkü tələbələri həm rəsmi qulluqda olan əsgər kimi, həm də könüllülər dəstəsinə qoşulan vətənsevər kimi heyrətamiz bir vətən məhəbbəti göstərdilər.

Vətən müharibəsinin başlanğıcında BDU Elmi Şurasında Rektor Elçin Babayev təklif irəli sürür: Ordumuzun Yardım Fonduna Universitet büdcəsindən vəsait ayırmaq. Elmi Şuranın bütün üzvləri təklifi ürəklə qarşılayır və hətta universitet əməkdaşlarından kim istəsə öz maaşından da yardım fonduna müəyyən məbləğ vəsait ayıra bilər. Amma tam könüllü olaraq. İlk olaraq rektor özünün bir aylıq maaşını Fonda köçürəcəyini bildirir, İkinci, akademik Vasif Babazadə, üçüncü professor Cahangir Məmmədli özlərinin bir aylıq maaşlarını fonda köçürmək qərarına gəlirlər. Universitetin bütün əməkdaşları bu təklifdən çox razı qalırlar və hər kəs öz maaşından ordumuzun Yardım Fonduna vəsait ayırır.

Bu da mənim Universitetimin vətənpərvərlik tədbiri: 44 günlük Vətən müharibəsi günlərində Universitetin publisistikaya meyilli əməkdaşları Ermənistanın işğalçılıq siyasətini ifşa edən, xalqımızı düşmənə qarşı birləşməyə səsləyən saysız-hesabsız məqalələrlə çıxış edirlər. Rektor Elçin Babayevin hər həftə qəzetlərimizdə dərc olunan publisistik yazıları bu günün aktual problemlərinin ifadəsi oldu. Bu yazılar Prezidentinizin, Ali Baş Komandanımızın o çətin günlərdə qələbə əzminə hesablanmış tədbirlərinin təhlillərini oxucuya çatdırdı. 44 günlük Vətən müharibəsi dünyada analoqu olmayan şanlı qələbə ilə bitdi. Mənim Universitetim və onun Elmi Şurası, əməkdaşları Azərbaycanın haqq səsini dünyaya çatdırmaq işində uğurlar qazandılar. Universitetimiz postmüharibə dövründə öz fəaliyyətini bir az da genişləndirdi. Torpaqlarımızın işğaldan azad edilməsi uğrundakı Vətən müharibəsində şəhid olmuş Universitet məzunları və tələbələrinin ailələrinə qayğı aksiyaları, qazilərimizlə mütəmadi görüşlər, gənc nəslin vətənpərvərlik uğrunda tərbiyəsinə birbaşa təsir göstərən faktlar sırasındadır. Universitet Elmi Şurası şəhid olmuş IV kurs tələbəsinin diplomunu hazırlayıb onun ailəsinə təqdim etmək qərarı qəbul etmişdir. Çox duyğulu bu aksiya həm BDU-da, həm də bütövlükdə təhsil mühitində bir hadisə kimi qəbul edilmişdi.

*Bakı Dövlət Universiteti Ümummilli Liderimiz Heydər Əliyevin anım günlərini həmişə xüsusi tədbir formatında qeyd edir. Pandemiya şəraitində belə Universitet dövlətçiliyimizin, milli maraqlarımızın formalaşması və qorunmasında misilsiz xidmətlər göstərmiş Ulu Öndərin- Universitetin ən mötəbər məzunun anım günü geniş tərkibdə qeyd etdi. Onlayn formatda keçirilən bu tədbirdə Universitetimizin və ölkəmizin sayılıb seçilən şəxsiyyətləri ilə bərabər, dünyanın bir sıra nüfuzlu dövlət və ictimai xadimlər də qatıldı. Ulu Öndərin anım gününü onun qurduğu Azərbaycan dövlətinin Vətən müharibəsindəki möhtəşəm Zəfər qələbəsi ilə üst-üstə qeyd olundu.*

2021-ci ilin yay imtahan sessiyasında imtahan verən tələbələrimizlə söhbətlərimiz olur. Tələbələrin hamısı imtahan müddətində müəllimlərin onlara səmimiyyətindən və rəğbətindən danışır. Pandemiya şəraitində onlayn formatında internet problemi ilə üzləşən və uzaq kənd yerlərindən dərsə qoşula bilməyənlərin bir çoxuna mənim doğma Universitetim xüsusi "internet payı" göndərmişdi. Adətən, semestr zamanı müəyyən saat dərs buraxan tələbələr imtahana buraxılmırlar. Rektor Elçin müəllimin təklifi ilə Elmi Şura yay imtahanlarında bu qadağanı ləğv edir və hamı bir nəfər kimi imtahanlara buraxılır. Universitet elm və təhsil müəssisəsidir. Bu anlayışdakı "elm" sözü Universitetdə elmi göstəricilərə diqqət tələb edir. Yeni rəhbərlik Universitetdə elmin inkişafı üçün çox ciddi tədbirlər görməkdədir. Bu tədbirlər lap elə pandemiya dövründə də Universitetin büdcəsinə çox böyük pul vəsaiti gətirir.

Şəraitin çətinliyinə baxmayaraq yenə də "Məzun Günü" təxirə salınmır. Maraqlı bir filmə bənzəyən bu məzun günündə universitetin ağsaqqal müəllimləri, Rektor başda olmaqla bütün fakültələrin sayılıb-seçilən əməkdaşları məzunları təbrik edirlər. Məzunların duyğulu ürək sözləri yaddaşlarda qalmaqdadır.

Mənim doğma Universitetim! Heç bir pandemiya, heç bir ağır şərait sənin xalqa xidmət missiyanı, Vətənə, tələbələrə olan sevgini zəiflədə bilmədi. İndi sənin auditoriyaların 1-ci kursun minlərlə tələbəsini gözləyir. Min bir arzu ilə səni seçmiş o tələbələr doğma bir ocağa, Vətən məhəbbətinə bürünmüş bir elm və tədris məbədinə ayaq basacaq.

Və onda bir daha hiss edəcəklər ki, onlar müqəddəs bir məkanda Vətən üçün hazırlanan gənc kadrlar sırasının başlanğıcında dayanıblar. Doğma Universitetimin və onun çoxminlik tələbələrinin yeni dərs ili uğurlu olsun.

***Mehdizadə Günel,***
***Iqtidar.az***

# BDU ilə İstanbul Universiteti arasında Mövlanə mübadilə protokolu imzalanıb

***Bakı Dövlət Universiteti ilə Türkiyənin nüfuzlu ali məktəblərindən olan İstanbul Universiteti arasında Mövlanə mübadilə proqramı çərçivəsində protokol imzalanıb.*** Mövlanə beynəlxalq müəllim-tələbə mübadilə proqramı tələbələrə Türkiyənin müxtəlif universitetlərində təhsil alma imkanı verməklə yanaşı, müəllimlərə də tədris prosesində iştirak etmək şansı yaradır. İmzalanan protokol tələbə və professor-müəllim heyətinin mübadiləsini, ikitərəfli əməkdaşlıq məsələlərini nəzərdə tutur.




Qeyd edək ki, 1453-cü ildə Fateh Sultan Mehmed tərəfindən əsası qoyulan Universitet 1846-cı ildə Avropa təcrübəsinə əsaslanaraq yenidən formalaşdırılıb. 1933-cü ildən bugünkü adı ilə fəaliyyət göstərən Türkiyənin ilk və nüfuzlu ali təhsil ocağı olan İstanbul Universitetində hazırda 17 fakültə (Tibb, Hüquq, Ədəbiyyat, İqtisadiyyat, Diş həkimliyi, Siyasi elmlər, İdarəçilik, İlahiyyat, İncəsənət, İqtisadiyyat və idarəetmə, İnformasiya və kommunikasiya, Memarlıq və s), 12 institut, 2 kollec, 2 peşə məktəbi və 77 elmi araşdırma mərkəzi fəaliyyət göstərir. Eyni zamanda, sözügedən universitetdə ikili ixtisas proqramları üzrə təhsil də həyata keçirilir. Universitetdə 70 000-dən çox tələbə təhsil alır. Universitetin iki məzunu Nobel mükafatı laureatıdır. İstanbul Universiteti QS dünya universitetləri reytinqində 801-1000-ci yerləri bölüşdürür.

# Azərbaycan mediası özünün inkişaf tarixində yeni mərhələyə qədəm qoyur

***Azərbaycan müstəqillik əldə etdikdən, daha doğrusu 1993-cü ilin iyunundan sonra ölkəmizdə insan hüquq və azadlıqlarının təməl prinsiplərindən olan fikir, söz və ifadə azadlığının, plüralizmin təmin edilməsi sahəsində də mühüm addımlar atılıb. Belə ki, ötən müddət ərzində ölkəmizdə kütləvi informasiya vasitələrinin (KİV) inkişafı üçün qanunvericilik sahəsi başda olmaqla müxtəlif istiqamətlərdə işlər görülüb. Həyata keçirilmiş ciddi islahatlar nəticəsində Azərbaycan Respublikasında senzura, söz və məlumat azadlığını məhdudlaşdıran maneələr aradan götürülüb.***




Şübhəsiz ki, ötən dövr ərzində Azərbaycan mediası özünəməxsus inkişaf yolu keçib, ölkəmizdə və dünyada baş verənlər haqqında informasiyaların cəmiyyətimizə, həmçinin ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərib. Bununla belə, bütün dünyada kommunikasiya vasitələrinin sürətlə inkişaf etdiyi, mütərəqqi texnologiyaların və iş metodlarının tətbiq olunduğu müasir dövrdə media sahəsində keyfiyyət dəyişikliklərinə ehtiyac duyulub. Məhz bu baxımdan, milli-tarixi ənənələr və modern çağırışlar, habelə müasir medianın özəllikləri də nəzərə alınmaqla hazırda KİV-də yeni islahatların reallaşdırılması prosesi gedir. Daha doğrusu, yeni konseptual baxış və fərqli tənzimləmə mexanizminin yaradılması ilə Azərbaycan mediası özünün inkişaf tarixində yeni mərhələyə qədəm qoyur.

Öz növbəsində Azərbaycanda söz və ifadə azadlığının hazırkı vəziyyətinə toxunan Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı, filologiya üzrə elmlər doktoru, Əməkdar jurnalist Vüqar Ziféroğlu "Yeni Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, ölkəmizdə fikir plüralizminə yaradılan şərait, müstəqil medianın inkişafına, jurnalistlərimizin fəaliyyəti və sosial durumlarının yaxşılaşdırılmasına göstərilən diqqət və qayğı yüksək səviyyədədir.

2021-ci ildə Azərbaycanda milli medianın inkişafı sahəsində yeni islahatlara start verildiyini xatırladan Əməkdar jurnalistin sözlərinə görə, Prezident İlham Əliyevin 12 yanvar 2021-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) yaradılması jurnalistikamızın inkişafı üçün mühüm hadisədir. V.Zifəroğlu ölkəmizdə medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi məqsədilə yaradılan Medianın İnkişafı Agentliyinin öz fəaliyyəti ilə mediamızın tərəqqisində əhəmiyyətli rol oynayacağına, onun maddi-texniki bazasının yaxşılaşdırılmasına böyük dəstək verəcəyinə ümid etdiyini bildirib: "İnanırıq ki, bu dəstək, həmçinin atılan addımlar mediada müasir texnologiyaların və innovasiyaların tətbiqini stimullaşdırmaqla yanaşı, XXI əsrin çağırışlarına cavab verən daha peşəkar medianın formalaşmasına gətirib çıxaracaq, eyni zamanda, mediamızın nüfuzunu daha da artıracaq".

V.Zifəroğlu deyib ki, Agentliyin yaradılması ölkəmizdə medianın inkişafına, qlobal informasiya məkanında baş verən trendlərin, dəyişikliklərin operativ şəkildə izlənməsinə, medianın fəaliyyətini daha məhsuldar şəkildə yenidən təşkil etməyə imkan verəcək: "Cənab Prezidentin imzaladığı Fərmanda qeyd olunduğu kimi, burada söhbət yeni tendensiyaların öyrənilməsindən, medianın fəaliyyətini yeni tələblər əsasında qurmaqdan gedir. Agentliyin yaradılması medianın inkişafı ilə bağlı strategiyanın hazırlanması, KİV ilə bağlı proseslərə çevik reaksiya verilməsi baxımından da önəmlidir. Belə ki, yeni medianın hüquqi tənzimlənməsi mexanizmlərinin hazırlanması üçün Agentliyin üzərinə məsul vəzifələr qoyulub".

Yaradılmasından qısa müddət keçməsinə rəğmən, Medianın İnkişafı Agentliyinin son aylarda media sahəsində islahatların aparılması, yeniliklərin tətbiqi sahəsində aktiv fəaliyyət göstərdiyini vurğulayan V.Zifəroğlu deyib ki, MEDİA onlayn mediada mövcud nizamsızlığı və mətbuat azadlığından sui-istifadə hallarının da aradan qaldırılmasında önəmli rol oynayacaq: "Belə ki, Agentliyin Nizamnaməsində çap, onlayn və audiovizual medianın işinin qurulması və onların səmərəli fəaliyyətinə nail olunması, kadr potensialının inkişaf etdirilməsi istiqamətində layihələrin həyata keçirilməsi üçün görüləcək mühüm işlərin konturları öz əksini tapıb. Agentlik artıq öz fəaliyyəti ilə, xüsusilə son vaxtlar təşkil edilən seminarlar və treninqlər, o cümlədən "Mediada islahatlara doğru" mövzusunda silsilə seminarlar təşkil etməklə bir sıra uğurlara imza atıb".

Müsahibimiz, eyni zamanda, mediada islahatlar dalğasının əsas tərkib hissəsi olan "Media haqqında" Qanun layihəsinin hazırlanmasını, layihə üzərində aparılan işlərin, o cümlədən onun geniş müzakirəsinin təşkil olunmasını müsbət qiymətləndirib: "Məlum olduğu kimi, artıq bir neçə aydır ki, MEDİA tərəfindən bütün media subyektləri, jurnalistlər və bu sahənin mütəxəssisləri və ekspertlərinin iştirakı ilə "Media haqqında" Qanun layihəsinin müzakirəsi aparılır. Rəylər dinlənilir, təkliflər nəzərə alınır, tələblər qeyd edilir. Ümumiyyətlə, jurnalistlərin "Media haqqında" Qanundan gözləntiləri çoxdur. Qanun, ilk növbədə, ölkə mediasının ən vacib, strateji sənədi olaraq nəzərdən keçirildiyindən, aparılan müzakirələr də çoxşaxəli və hərtərəflidir".

Jurnalistika fakültəsinin dekanı qeyd edib ki, nəticə etibarilə, "Media haqqında" Qanun çağdaş media sisteminin tələblərinə və müasir çağırışlara cavab verməlidir: "Belə ki, qanun layihəsinin əsas məqsədi bütün media qurumlarının, o cümlədən onlayn media subyektlərinin də fəaliyyət və hüquqlarının müəyyən olunmasıdır. Media mənsublarının fəaliyyət azadlığı, jurnalistin peşə fəaliyyətinin təmin olunması, media sahəsində dövlətin vəzifələri, Vahid Media Reyestrinin yaradılması, jurnalistlərin akkreditasiyası, onlara vahid press-kartların (jurnalist vəsiqələrinin) verilməsi nəzərdə tutulması və digər məsələlər bunun əyani sübutudur. "Media haqqında" Qanun, heç şübhəsiz ki, 1875-ci ilin 22 iyulundan başlayaraq böyük və şanlı tarixi yol keçmiş, özünəməxsus ənənələri və dəyərləri olan Azərbaycan mediasının XXI əsrdə əsas istinad sənədi olmalıdır. Bu baxımdan, "Media haqqında" Qanun layihəsinin müasir dövrün tələblərinə uyğun olaraq hazırlanması mühüm önəm kəsb edir".

Mediamızın yeni bir mərhələyə qədəm qoyduğunu xüsusi vurğulayan V.Zifəroğlu onu da bildirib ki, bu sahədəki mövcud durumu Azərbaycan mediasının inkişafa və yeni çağırışlara hazır olmasını hədəfləyən bir proses kimi qiymətləndirmək olar.

*Mənbə: www.yeniazerbaycan.com*




# Görmə əlilliyi olan insanlar üçün nəşriyyat, kitabxana və onların mövcud problemləri

***Bu gün informasiya cəmiyyətində əhalinin əksəriyyətinin fəaliyyəti informasiyadan istifadə imkanının olmasına əsaslanır. İnformasiyadan sərbəst istifadə zənginliyə aparan yol kimi qiymətləndirilir. Lakin buna baxmayaraq ölkəmizdə mövcud problemlər üzə çıxarılmalı, onların həlli yolları araşdırılmalıdır. Mən bu tədqiqatımda görmə üzrə əlilliyi olan insanlar üçün çap məhsullarının nəşrini həyata keçirən nəşriyyatlar və məhz onlar üçün nəzərdə tutulmuş kitabxanaları araşdırmağa çalışmışam.***

Ölkəmizdə görmə əlilliyi olan insanların kitaba, dərsliklərə, dərs vəsaitlərinə olan tələbatı bu gün aktual mövzulardan biridir.

Araşdırmalar nəticəsində məlum olur ki, ölkəmizdə bu gün yeganə nəşriyyat "Brayl Nəşrləri" - İnformasiya Resurs Mərkəzi tərəfindən görmə əlilliyi olan insanlar üçün kitablar çap edilir. (Yeri gəlmişkən qeyd edək ki, ölkəmizdə əlil insanlar üçün kitabların nəşrini sovetlər dönəmində ilk dəfə həyata keçirən nəşriyyat "Azərnəşr" olmuşdur).

"Brayl Nəşrləri" - İnformasiya Resurs Mərkəzi nəşriyyatı 1995-ci ildə yaradılmışdır. Poliqrafiya avadanlıqlarının əldə olunması və alınmasında İngiltərə səfirliyi və Küveyt dövlətinin dəstəyi olmuşdur. Təbii ki, texniki çatışmazlıqlar görmə üzrə əlilliyi olan insanlar üçün dərsliklərin, dərs vəsaitlərinin nəşrinə mənfi təsir göstərir. Bu cür nəşrlərin çox maliyyə tələb etməsi çap işlərinin ləngiməsinə səbəb olan başlıca amillərdən biridir. Təbii ki, bu işə Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi də dəstək olmalıdır.

Nəşriyyatda orta məktəblərdə birinci siniflər üçün riyaziyyat üzrə Bəybala İbadullayev, Azərbaycan dili üzrə isə Famil Hacıyev dərsliklərin, dərs vəsaitlərinin redaktəsini həyata keçirirlər. Qeyd edək ki, Famil Hacıyev və Bəybala İbadullayev özləri də görmə əlilliyi olan insanlardır. Bundan başqa digər redaktorlar nəşriyyatda fəaliyyət göstərirlər ki, onlar özləri də görmə əlil şəxslərdir. Çünki bu kitabların redaktəsini görmə əlilliyi olan insanlar həyata keçirə bilərlər. Həmçinin qeyd edək ki, ümumiyyətlə, nəşriyyatda fəaliyyət göstərən işçilərin 90 %-i görmə əlildir.

Orta məktəb sistemində olan problemlərdən ən başlıcası dərsliklərin 8-ci sinifə qədər olmasıdır. Qeyd edək ki, görmə üzrə əlil olan şagirdlər üçün nəzərdə tutulmuş məktəblər 12-ci sinfə qədərdir. Onlar 12 illik təhsil alırlar. Maliyyə çətinlikləri dərsliklərin və dərs vəsaitlərinin təminatına maneə olan ən başlıca problemlərdən biridir.

Respublikamızda Gözdən Əlillər Cəmiyyətinin sədr müavini Reyhan Cəfərova ilə bəzi məsələlərə aydınlıq gətirəndən sonra məlum oldu ki, bu gün gözdən əlil olan şagirdlər məktəbi bitirəndən sonra ali məktəbə hazırlıq üçün çox çətinliklərlə üzləşirlər. Onlar üçün xüsusi hazırlıq kursları yoxdur, xüsusi test proqramları yoxdur. Bu il şagirdlər üçün ibtidai siniflər üzrə 3 dərsliyin nəşri nəzərdə tutulduğunu da Reyhan xanım qeyd etdi. Lakin buna baxmayaraq, dərsliklərin, dərs vəsaitlərinin, sinifdən xaric oxu materiallarının nəşrinə xüsusi ehtiyac duyulmaqdadır. Təbii ki, gözdən əlil insanlar üçün görülən işlər maddi və texniki dəstəyə əsaslanır.

Oxu proqramlarının əldə olunması üçün android telefonlar, planşetlər, xüsusi kitab oxuyucu cihazlar tələb olunur. Bunların da dəyəri çox baha olduğu üçün məhdud imkanlı ailələrin bu qurğuları, cihazları əldə etməsi çətin olur.

Respublikamızda Gözdən Əlillər Cəmiyyəti Mərkəzi İdarəsi Rəyasət Heyətinin 23 may 1980-ci il tarixli, 11 nömrəli qərarına əsasən Respublika Mərkəzi Kitabxanasının yaradılmasına sərəncam verilmiş və kitabxana 01 iyun 1981-ci ildə fəaliyyətə başlamışdır. Lakin sonralar Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin büdcəsində maliyyə çətinliyi yarandığı üçün kitabxanada çalışan işçilərə əmək haqqı verilməsi və yeni "danışan kitablar"ın alınması mümkün olmadığından AzƏC Respublika Mərkəzi kitabxanası 01 yanvar 1994-cü il tarixindən Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyinə verilir. Bu kitabxananın digər kitabxanalardan fərqli cəhəti bütün oxuculara fərdi yanaşma tərzi ilə fəaliyyət göstərməsidir. Burada oxucuların görmə səviyyəsi, obyektə adaptasiya dərəcəsi, digər xüsusi amillər nəzərə alınır.

(Ardı səh 10-da)

# BDU-nun əcnəbi doktorantı yazır: Qarabağ Azərbaycanın tarixi ərazisidir!

***2021-ci ilin əvvəllərində həyatımda yeni mərhələ başladı. Azərbaycan Prezidentinin Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına təhsil qrantlarının verilməsi haqqında Sərəncamına uyğun olaraq, fəlsəfə doktorluğu proqramı üzrə ölkənin ilk ali təhsil ocağı Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinə əyani doktorant kimi qəbul olunduğum üçün Azərbaycana gəldim.***

Azərbaycana gəlişim əlamətdar günlərə təsadüf edirdi. Ölkə 30 illik işğala son qoymuşdu və tarixi ərazilərini azad etmişdi. Səfərim ərəfəsində Azərbaycan haqqında və ölkənin Vətən Müharibəsindəki qələbəsi ilə bağlı müəyyən məlumatlarım var idi. Bu barədə qəbul olunduğum Kitabxanaçılıq-informasiya fakültəsində tanışlıq görüşümüz zamanı mənə daha ətraflı bilgilər verildi.

Təhsil Nazirliyi tərəfindən Azərbaycanda təhsil alan əcnəbi



tələbələrin azad edilmiş ərazilərə səfərinin təşkil edilməsi və həmin tələbələrin sırasında yer almağım məni çox sevindirdi. Səfərimizə Bakıdakı Şəhidlər xiyabanından başladıq. Xiyabanın önündən Təhsil Nazirliyinin əməkdaşları və jurnalistlərlə birgə avtobuslara minərək Qarabağa yola düşdük.

Füzuli və Cəbrayıl rayonlarına, tarixi Xudafərin körpüsünə səyahətim zamanı gözəl təbiəti seyr etdim. Tarixlərin mirası olan Xudafərin körpüsündə Azərbaycan bayrağını dalğalandıraraq şəkillər çəkdirdik. Eyni zamanda səfər zamanı Azərbaycanın ərazilərinin işğal dövründə xarabalığa çevrildiyinin şahidi oldum. Dağıdılmış məscidlərə, qəbiristanlara baş çəkdik. Səfər zamanı Qarabağ haqqında daha aydın təsəvvürlərim yarandı, bu barədə dolğun məlumatlar əldə etdim. Qarabağ Azərbaycanın ən qədim tarixi ərazilərindəndir. "Qara" və "bağ" sözlərinin birləşməsindən yaranan bu ad "Böyük bağ" mənasını verir. Səfərimiz boyu Qarabağın gözəlliklərinə heyran qaldım. Belə bir gözəl məkanın düşmən tərəfindən yandırıldığını, dağıdıldığını görmək isə çox kədərli idi.

Ümid edirəm və inanıram ki, güclü Azərbaycan dövləti yaxın illərdə Qarabağı yenidən quracaq, bərpa edəcək, bu gözəl torpaqlar bir daha müharibənin şahidi olmayacaqdır. Azərbaycan xalqı isə əbədi olaraq sülh içərisində yaşayacaqdır.

Belə bir səfərin təşkilatçılığı üçün Təhsil Nazirliyinə, təhsil aldığım Bakı Dövlət Universitetinə təşəkkür edirəm. Azərbaycanda yaşamaqdan və ölkənin ilk, ən nüfuzlu ali təhsil müəssisəsində təhsilimi davam etdirməkdən çox məmnunam.

***Lemunes Nour El Houda Djoumana,***
*Kitabxanaçılıq-informasiya fakültəsinin əyani doktorantı, Əlcəzair Xalq Demokratik Respublikasının vətəndaşı*

# BDU kollektivi şəhid məzunun ailəsini ziyarət edib

***Avqustun 5-də Bakı Dövlət Universitetinin bir qrup kollektivi BDU-nun Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin məzunu Şamil Nəcəfovun ailəsini və məzarını ziyarət ediblər.*** Ziyarətdə BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Həmkarlar İttifaqı Komitəsinin sədri Rəşad Cabarov və Tələbə Gənclər Təşkilatının üzvləri iştirak ediblər.

Tələbələr Şamil Nəcəfovun Vətən torpağı uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmasından qürur duyduqlarını bildiriblər. BDU-da təhsil aldığı müddətdə nümunəvi tələbə kimi seçilən Şamilin həm müəllimlərinin, həm də tələbə yoldaşlarının qəlbində daim yaşayacağı, gələcək nəsillər üçün örnək olacağı qeyd olunub.



Şəhidin valideynləri diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib və məhz dövlətimizin başçısının apardığı uğurlu siyasət nəticəsində torpaqlarımızın düşmən tapdağından azad edildiyini qeyd ediblər. Vətən torpağı uğrunda rəşadətlə döyüşərək şəhid olan əsgər valideynləri kimi fəxr etdiklərini vurğulayıblar.

Qeyd edək ki, Vətən müharibəsində BDU-nun onlarla məzunu iştirak etmiş, onlardan 18 nəfəri şəhidlik zirvəsinə ucalmışdır. BDU-da müqəddəs şəhidlərimizin xatirəsinin uca tutulması, şəhidlik zirvəsinə ucalmış məzunlarımızın ailələrinə diqqət və qayğı göstərilməsi, qazi tələbələrimizin təhsil problemlərinin öyrənilməsi və həlli istiqamətində müvafiq dəstəyin göstərilməsi məqsədilə Tədbirlər Planı işlənilib hazırlanmışdır. Tədbirlər Planına müvafiq olaraq şəhid məzunların ailələri müntəzəm olaraq ziyarət olunur.

# Tələbələrimiz Ağdam şəhərinə təşkil olunan səfərdə iştirak ediblər

***Avqustun 16-da Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (NAYORA) təşkilatçılığı ilə ölkəmizdə fəaliyyət göstərən bir sıra aparıcı gənclər təşkilatlarının nümayəndə heyətinin işğaldan azad olunmuş Ağdam şəhərinə səfəri təşkil edilib.***

Bakı Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatını da təmsil olunduğu səfərdə ökəmizdə fəaliyyət göstərən 20 gənclər təşkilatının 40-dək nümayəndəsi Ağdam rayonunda Pənahəli xanın imarətini, İmarət stadionunu, Cümə və Qiyaslı məscidlərini və Ağdam Dövlət Dram Teatrını ziyarət edib, Ağdam şəhərinin tarixi mədəniyyət abidələri ilə tanış olublar.

Səfər iştirakçıları 44 günlük Vətən müharibəsində Müzəffər



Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi qələbənin qəhrəmanlarının ruhlarını ehtiramla yad edib, işğaldan azad olunmuş torpaqlarımızın dirçəlməsində hər bir Azərbaycan gəncinin səfərbər olacağını vurğulayıblar.

Nümayəndə heyətinin üzvləri Ağdamın tarixi, indiki vəziyyəti, burada törədilən erməni vandalizmi, eləcə də tarixi, dini, mədəni abidələrimizin vandalizmə məruz qalması barədə ətraflı məlumatlandırılıb. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov gənclərə Ağdam şəhərinin baş planı çərçivəsində həyata keçiriləcək quruculuq işləri barədə ətraflı məlumat verib.

# "BDU-nun tarix yazan şəhid məzunları" layihəsi davam edir

***Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Şanlı Ordumuzun Böyük Qələbəsi ilə başa çatan və Azərbaycan tarixinə əbədi həkk olunan 44 günlük Vətən Müharibəsində Bakı Dövlət Universitetinin tələbə və məzunları da qəhrəmancasına iştirak etmiş, onlardan 18 nəfəri şəhidlik zirvəsinə ucalmışdır.***

BDU və Missiya internet televiziyasının "BDU-nun tarix yazan şəhid məzunları" birgə layihəsi çərçivəsində Universitetin qəhrəman şəhid məzunlarının ailələri ziyarət olunur, reportajlar hazırlanaraq geniş ictimaiyyətə təqdim olunur. Layihənin məqsədi BDU-nun şəhidlik zirvəsinə ucalmış məzunlarının xatirəsini yaşatmaq, onların şərəfli döyüş yolunu yaddaşlara əbədi həkk etməkdir.

Layihə çərçivəsində bugünədək BDU-nun şəhid tələbə və məzunlarından Cavid Manafov, Nicat Əhmədov, Şamil Nəcəfov, Manaf Bəhmənli, Ceyhun Şalıyev, Vüqar Məmmədov, Ataməli Musaoğlu haqqında reportajlar hazırlanmışdır. Reportajlarda şəhid məzunlarımızın uşaqlıq və tələbəlik illəri, Vətən Müharibəsində keçdikləri şərəfli döyüş yolu barəsində həm valideynlərinin, həm də Universitet müəllimlərinin fikirləri öz əksini tapır.

Layihə hazırda uğurla davam edir.

# "Dəniz və enerji hüququ" ixtisaslaşması üzrə beynəlxalq ikili diplom proqramı çərçivəsində magistr hazırlığı uğurla davam edir

***Bakı Dövlət Universiteti Qazaxıstanın Əl-Farabi adına Qazax Milli Universiteti ilə magistratura pilləsində "Dəniz və enerji hüququ" ixtisaslaşması üzrə ikili diplom proqramı çərçivəsində mütəxəssis hazırlığında təhsil-elm-innovasiya üçlüyünün qabaqcıl nailiyyətlərindən istifadə edir.*** "Hüquqşünaslıq" ixtisasında təhsil alan bakalavrlar bu ixtisaslaşma üzrə magistraturada təhsillərini davam etdirir və onlara beynəlxalq ümumi dəniz hüququ, ümumi enerji hüququ, neft və qaz hüququ, həmçinin enerji və dəniz hüququ üzrə mövcud beynəlxalq konvensiyalar təlimin innovativ texnologiyalarından istifadə edilməklə tədris edilir. Tədris hər iki universitetin bu sahədə ixtisaslaşmış professorları tərəfindən ingilis dilində aparılır.

Hazırda BDU "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq kreativ düşüncəli və konvergens biliklərə malik mütəxəssislərin hazırlanması istiqamətində ABŞ, İsrail, Qazaxıstan, Fransa, İsveçrə və Almaniyanın bir neçə qabaqcıl universitet və institutları ilə bakalavr, magistratura, doktorantura pilləsi və MBA proqramı üzrə beynəlxalq ikili diplom, habelə, yeni ixtisaslar üzrə beynəlxalq akkreditasiyadan keçmiş təhsil proqramlarını tətbiq edir.

# BDU əməkdaşları torpaqların çirklilik dərəcəsinin müəyyən edilməsində indikator bitkilərdən istifadə edilməsini təklif edir

***Botanika və bitki fiziologiyası kafedrasında neft və neft məhsulları ilə çirklənmiş torpaqların çirklilik dərəcəsinin indikator bitkilərin köməyi ilə təyin edilməsi üzrə tədqiqatlar davam edir.***

Hazırda ətraf mühitdə antropogen amillər və texnogen təsirlərin gücləndiyi, o cümlədən neft mədənləri ərazisində torpaq-bitki örtüyünün neft məhsulları, minerallaşmış lay suları və s. tullantıları ilə çirkləndirilməsi səbəbindən torpaqların münbitliyinin itirilməsinə (eroziyanın inkişafına, şorlaşmaya, humus təbəqəsinin strukturunun pozulmasına), bitki örtüyünün isə deqradasiyasına səbəb olur. Bu baxımdan, belə neqativ proseslərin qarşısını almaq məqsədi ilə bitkilərin bərpası və torpaqların çirklənmə dərəcəsinin indikator bitkilər ilə araşdırılması zərurəti yaranmışdır. Ekoloji-geobotanika tədqiqatları Şimali Xəzər sahili ərazisində, Samur-Şabran ovalığında "Siyəzən neftin" 1, 2 və 3 saylı neft mə-



dənlərində aparılmışdır. Tədqiqatın yekun nəticəsinə əsasən bir neçə informativ sxem tərtib olunmuşdur.

Aparılan elmi-tədqiqat işlərinin nəticəsi göstərir ki, neft və neft məhsulları ilə çirklənmiş torpaqların çirklilik dərəcəsini (zəif, orta və şiddətli) kimyəvi analiz aparmadan da indikator bitkilərin köməyi ilə təyin etmək və qiymətləndirmək mümkündür.

Tərtib olunmuş müvafiq sxemlər "indikasiya xəritəsi"nin aerokosmik metodlarla tərtibi üçün istifadə edilə bilər.

# BDU İsrailin Holon Texnologiya İnstitutu ilə birgə bakalavr hazırlayır

***Bakı Dövlət Universitetində prioritet istiqamətlərin müəyyənləşdirilməsinə, elmi fəaliyyətin nəticələrinin kommersiyalaşdırılmasına, təhsilalanlarda yaradıcı və innovativ düşüncənin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir.*** Universitet istedadlı müəllim və tələbə kontingenti, əlverişli öyrənmə-öyrətmə mühiti, elmi tədqiqatları inkişaf etdirmək üçün resursları, strateji baxış, yenilik və çevikliyin inkişafını təşviq edən, çevik qərarlar qəbul edən və idarə edə bilən idarəetmə sistemi kimi qarşılıqlı şəkildə bir-birini tamamlayan mühiti formalaşdırmaqla elmi tədqiqatlar, beynəlxaq ikili və üçlü diplom proqramları, dinamik tədris proqramları və pedaqoji metodlarla biliklərin yayılmasına xidmət edir.

Artıq elmi araşdırmalar təhsil prosesinin ayrılmaz tərkib hissəsinə çevrilib. Əmək bazarında rəqabətə davamlı yüksək ixtisaslı mütəxəssislər hazırlanır, nəticəsi nüfuzlu elmi nəşrlərdə dərc olunan prioritet istiqamətlərdə elmi tədqiqatlar aparılır və patentlərin lisenziyalaşdırılması yolu ilə elmi-tədqiqat yönümlü yeni texnologiyaların inkişafına mühüm töhfə verilir.

BDU və İsrailin Holon Texnologiya İnstitutu (HTİ) arasında imzalanmış əməkdaşlıq müqaviləsi buna misal ola bilər. BDU və HTİ bakalavriatura pilləsində "Kompüter elmləri" ixtisası üzrə beynəlxalq ikili diplom proqramı üzrə təhsil, elm, sənaye və biznesin müxtəlif sahələri üçün kompüter elmlərinin müasir nailiyyətlərinə yiyələnmiş, informasiya texnologiyaları sahəsində dərin biliklərə malik olan, kompüter elmləri və texnologiyalarının fundamental və xüsusi tətbiqi metodlarından istifadə edərək öz peşə fəaliyyətlərində praktik problemləri formalaşdıran və effektiv həll edə bilən yüksək ixtisaslı mütəxəssislər hazırlayırlar. Tədrisdə beynəlxalq tələblərə cavab verən yeni uyğunlaşdırılmış tədris planı tətbiq edilir. Hər iki universitetin professor-müəllimlərindən və tədqiqatçılardan ibarət peşəkar kollektivi öyrənmə və tədqiqata yönəlmiş mühazirə və praktiki məşğələlər təşkil edir, kompüter elmləri sahəsi üzrə aktual problemlərin həlli ilə məşğul olan alim, tədqiqatçı və istehsalatdan olan mütəxəssislər tədrisə cəlb olunur.

## "Gənc istedadlar" liseyinin şagirdi 53-cü Beynəlxalq Kimya Olimpiadasında bürünc medal qazanıb



***25 iyul - 2 avqust 2021-ci il tarixlərində onlayn formatda məktəblilərin 53-cü Beynəlxalq Kimya Olimpiadası (IChO) keçirilib. 79 ölkədən 312 məktəblinin qatıldığı olimpiadada ölkəmiz 4 məktəbli ilə təmsil olunub. Olimpiadada Azərbaycan məktəbliləri növbəti uğura imza atıblar.***

Belə ki, Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin XI sinif şagirdi Xanım Yaqublu, Təhsil nazirliyinin birbaşa tabeliyində olan Gəncə şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin X sinif şagirdi Məhsəti Piriyeva, Astara rayonu Pensər kənd Z.Ə.Əhmədzadə adına 2 nömrəli məktəb-liseyin X sinif şagirdi Salman Hüseynov və BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin X sinif şagirdi Nəriman Şirinli bürünc medala layiq görülüb.

# BDU ilə İsveçrənin UBIS Universiteti arasında ikili diplom proqramı üzrə əməkdaşlıq müqaviləsi imzalanıb

***Avqustun 13-də Bakı Dövlət Universiteti və İsveçrənin Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti (UBIS) arasında Beynəlxalq münasibətlər və diplomatiya ixtisaslaşması üzrə magistratura səviyyəsində ikili diplom proqramına dair əməkdaşlıq müqaviləsinin imzalanma mərasimi keçirilib.***

Qeyd edək ki, İsveçrənin UBIS Universitetində biznes administrasiyası və beynəlxalq münasibətlər sahəsində yüksək səviyyədə bakalavr (BBA, BAIR), magistr (MBA, MAIR) və doktorant hazırlığı həyata keçirilir. Universitet ABŞ-ın Biznes Təhsili üzrə Beynəlxalq Akkreditasiya Şurasının (IACBE) xüsusi akkreditasıyasından keçmiş, həmçinin ABŞ-da və digər dünya ölkələrində biznes və beynəlxalq münasibətlər ixtisası proqramları-



nın tədrisi üzrə tam akkreditasiya almış ilk ISO 29990 sertifikatlı İsveçrə ali təhsil müəssisəsidir. Universitet 2012-ci ildən İsveçrə Keyfiyyət Sertifikatına sahibdir.

İmzalanma mərasimində BDU-nun Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekanı Zeynalabdin Həsənəliyev, UBIS Universitetinin baş direktorunun müavini Rafael Salazar, dekan müavini Roy Mouavad, Biznesin inkişafı üzrə direktor Kamal Dadaşov iştirak ediblər.

Görüşdə BDU-nun Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov UBIS Universiteti ilə birgə kadr hazırlığının, universitetlərarası ikili diplom proqramının əhəmiyyətindən bəhs edib və gələcək əməkdaşlığın faydalı olması üçün bütün zəruri addımların atılacağını bildirib.

UBIS Universitetinin baş direktorunun müavini Rafael Salazar çıxışında imzalanma mərasimini gələcək əməkdaşlığın inkişafına töhfə verəcəyini bildirib və onu birgə əməkdaşlıq istiqamətində görülən işlərin bəhrəsi kimi qiymətləndirib.

Görüşün sonunda BDU və UBIS Universiteti arasında ikili diplom proqramı üzrə əməkdaşlıq müqaviləsi imzalanıb.

Bu ikili diplom proqramı BDU ilə UBIS universiteti arasında siyasi və idarəetmə elmlərinin fundamental və tətbiqi metodlarından istifadə edərək öz peşə fəaliyyətlərində praktik problemləri təsnif etmək və onları effektiv həll etmək bacarıqlarına malik, habelə, təhsil, elm və beynəlxalq münasibətlər sahəsi üçün yüksək ixtisaslı mütəxəssislərin hazırlanması prosesinə xüsusi təkan verəcəkdir.

# BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə islahatlar aparılır

***Təhsil başəriyyət tarixində həmişə müstəsna əhəmiyyətə malik olub. Müasir dünyamızda baş verən mühüm dəyişikliklər təhsili ictimai həyatımızın həlledici amilinə çevirib. Ölkəmizdə aparılan davamlı islahatlar, bu istiqamətdə irəli sürülən qabaqcıl ideyalar, reallaşdırılan layihələr təhsilin tərəqqisinə əhəmiyyətli töhfələr verib.***

Bakı Dövlət Universitetində tədrisin və elmi tədqiqatların keyfiyyətinin yüksəldilməsi, qlobal təhsil məkanına daha sıx inteqrasiya, əmək bazarının yüksək ixtisaslı mütəxəssislərə tələbatının ödənilməsi, habelə ali təhsilin müasir dövrün tələblərinə uyğunlaşdırılması istiqamətində mühüm addımlar atılır. BDU-da aparılan islahatlar eyni zamanda BDU-nun Qazax filialı, BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə, “Gənc istedadlar” liseyində tədrisin keyfiyyətinin yüksəldilməsinə əhəmiyyətli təsir göstərir.

***Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kollecdə aparılan islahatlar da ölkəmizdə orta ixtisas təhsilinə, əmək bazarının peşəkar mütəxəssislərlə təmin olunmasına göstərilən diqqətin təzahürüdür. Kollecdə aparılan islahatlar, yeniliklər barədə kollecin direktoru Səhər Orucova ilə söhbət etdik.***

***- Səhər xanım, kollecə direktor təyin olunduqdan sonra ilk nələrə diqqət yetirdiniz?***

-Təyinatım imtahan sessiyası vaxtına təsadüf etdiyi üçün qarşıda duran ilk məsələ imtahanların təşkili oldu. Öncə imtahanların vaxtlarının düzgün və optimal olaraq müəyyənləşdirilməsinə, eləcə də tələbələrin imtahanlara nizamlı şəkildə qoşulmasına nəzarət etdik. Demək olar ki, bütün imtahanlarda şəxsən özüm də iştirak etdim. İmtahanların şəffaf şəkildə keçirilməsi, pandemiya şəraiti nəzərə alınmaqla tələbəyönümlü qərarlar qəbul edilməsi qarşıya qoyulan məqsədlərdən idi.

***- Yay imtahan sessiyası necə yekunlaşdı, hansı tələbəyönümlü addımlar atıldı?***

-Sessiya uğurla yekunlaşdı. İmtahanlardan sonrakı prosesləri də diqqətdə saxladıq. Kollecdə apelyasiya komissiyası və imtahan qərargahı yaratdıq, qiymətindən razı qalmayan tələbələr bu komissiyaya müraciət etdilər. İmtahanlarda iştirak etməyənlər üçün isə təkrar imtahanlar təşkil etdik.

Kollecdə yay məktəblərinin təşkilinin də labüd olduğunu hesab etdik. Buna görə də, 2021-ci il 13 iyul tarixində keçirilən Pedoqoji Şurada qəbul edilən qərara əsasən, imtahanlarda müvəffəq qiymət ala bilməyən tələbələrin



yay məktəbinə cəlb olunmaları təmin edilib.

Kollecə müraciətlərdən əlavə təhsilə tələbat olduğunu gördük. Ona görə də, Kollecdə müxtəlif ixtisaslar üzrə əlavə təhsil almaq üçün şərait yaratmışıq.

Onu da qeyd etmək istəyirəm ki, Kollecdə texniki işçilərin texniki bilik və bacarıqlarının artırılması məqsədilə treninqlər təşkil etmişik. Bu treninqlərdə Microsoft Ofis proqramları tədris olunur.

***- Kollecin ictimai həyatında hansı dəyişikliklər olub?***

-Düşünürəm ki, tələbələrin inkişafında, dünyagörüşünün artmasında onların ictimai fəaliyyətləri böyük rol oynayır. Ona görə də Kollecin sosial-ictimai həyatında bir sıra önəmli addımlar atılıb. Tələbələrin sosial-ictimai işlərinə nəzər yetirdikdə məlum oldu ki, Kollecin Tələbə Gənclər Təşkilatı fəaldır. Lakin, biz tələbə təşkilatlarının sayının artırılmasını məqsədəuyğun hesab edirik. Buna görə də 2021-ci il 23 iyun tarixində keçirilən iclasda Kollecdə tələbə təşkilatlarının sayının artırılması, yeni layihələrin həyata keçirilməsi haqqında müzakirələr aparılıb.

Kollecdə Milli Qurtuluş Günü, Səhiyyə İşçiləri Günü, Silahlı Qüvvələrin Yaranması Günü, Tovuz döyüşlərinin ildönümü ilə bağlı və s. tədbirlər keçirilib, "Stresslə mübarizə yolları" mövzusunda onlayn seminar təşkil olunub.

Kollecdə xüsusi karantin rejiminin tələbləri gözlənilməklə, məhdud sayda məzunun iştirakı ilə "Məzun Günü"nü də qeyd etdik.

Kollecin İdman Könüllülərinin klub sədri Həyat Allahverdiyeva iyun ayı üzrə göstərdiyi səmərəli fəaliyyətinə görə Azərbaycan İdman Könüllüləri İctimai Birliyi tərəfindən 100 balla qiymətləndirilib, kollecimiz isə "Ayın Kolleci" seçilib.

Həmkarlar İttifaqı Komitəsinin dəstəyilə Kollecin əməkdaşlarının asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə Qəbələ-Oğuz turu təşkil olunub.

Kollecin tədris və ictimai işlərinin işıqlandırılması məqsədilə sosial şəbəkələrdə Kollecin rəsmi səhifələri yaradılıb, eyni zamanda rəsmi saytda təkmilləşdirilmə işləri aparılıb.

***- Yeni tədris ilinə necə hazırlaşırsınız?***

-Yeni tədris ilində yeni tədris proqramlarının, dərs vəsaitlərinin və dərsliklərin hazırlanması, müxtəlif kursların (kompüter, dil və s.), dərnəklərin təşkil edilməsi, beynəlxalq əlaqələrin qurulması, BDU-nun alimlərinin iştirakı ilə elmi seminarların, konfransların, açıq dərslərin keçirilməsi nəzərdə tutulub. Kollecin yeni strukturu hazırlanıb. Düşünürük ki, qarşıda görəcəyimiz işlər çoxdur və bu işlərin öhdəsindən layiqincə gəlmək üçün Kollecin bütün kollektivi hazırdır.

***Müsahibəni apardı:***
***Xəyalə Qulamova,***
*İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin əməkdaşı*

*(Əvvəli səh. 7-də)*

# Görmə əlilliyi olan insanlar üçün nəşriyyat, kitabxana və onların mövcud problemləri

***Tənha yaşayan, sərbəst hərəkət edə bilməyən oxuculara evdə səyyar kitabxana kimi xidmət göstərmək də bu kitabxanaların başlıca vəzifəsi olmalıdır. Bunun üçün çox təşəbbüs göstərilmiş, lakin həyata keçirilməsi mümkünsüz olmuşdur.***

Gözdən əlil doğulmuş və ya sonradan qazanılan əlilliyi olduğu halda onlara kiril və latın qrafikalı Brayl əlifbası öyrədilir. “JaWs” ekran oxuma proqramı ilə təchiz olunmuş kompüterlərdən istifadə vərdişləri aşılanır. Çox təəssüf olsun ki, bu “JaWs” ekran oxuma proqramının operatoru türkcə olduğu üçün mətnlərin oxunmasına əngəllər törədir. Azərbaycan dilində bu proqramın dilimizə uyğun işlənməsi ən başlıca məsələlərdən biri kimi qarşıya qoyulmalıdır.

Kitabxana fondunun xüsusi nəşrlərlə komplektləşdirilməsi işində zəif inkişaf özünü göstərir. Fond iyirmi iki min nüsxə kitabdan ibarətdir. Kitabxanaya Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə nəşr olunmuş 4 min 976 kitab hədiyyə edilmişdir. Kitabxana 6 şöbə üzrə fəaliyyət göstərir: 1) Abonement şöbəsi; 2) Oxu zalı; 3) Səsyazma studiyası; 4) Fonetika; 5) Brayl kitabları şöbəsi; 6) Ənənəvi kitablar şöbəsi.

İstifadə olunub istismar müddətini bitirmiş disklər kitabxananın səsyazma studiyasında orijinal nüsxədən yeni nüsxələrə köçürülərək yenidən istifadə üçün fonda daxil edilir. Respublika Görmə üzrə əlillər kitabxanasının müasir avadanlıqlarla təchiz edilməsinə də böyük ehtiyac var. Bunun sayəsində “danışan kitablar”ın artırılmış nüsxələri regionlarda fəaliyyət göstərən mərkəzi kitabxana sistemlərinə və ya Görmə üzrə Əlillər Cəmiyyətinin yerli şöbələrinə təmannasız verilməsi üçün dəstək lazım olduğunu da qeyd etmək lazımdır.

Kitabxana öz işini Respublika Görmə üzrə Əlillər Cəmiyyəti ilə sıx əlaqədə qurur. Mütəmadi keçirilən tədbirlərdə əlil oxucularla sorğu keçirilir, sifariş veriləcək ədəbiyyatın seçimində hər bir oxucunun istəyi nəzərə alınır. Kitabxananın bu cür müsbət keyfiyyətləri olduğu halda, kitabxana fondunda olan kitabların elektron formada, kitabxanaya getmədən əldə olunması üçün sayt yoxdur. Onlayn kitabxananın yaradılıb istifadəyə verilməsi üçün maddi imkanlar məhduddur.

Kitabxana 1981-ci il 1 iyun tarixindən bu günə kimi Bakı şəhəri, 2-ci Sülh döngəsi, ev 2 ünvanında 4 mərtəbəli binanın zirzəmisində (262 kv.m. sahədə) yerləşir. Kitabxananın zirzəmidə yerləşməsi də ürəkaçan hal deyildir. Kitabxananın maddi imkanları məhdud, şəraiti zəif, əlverişsiz durumdadır.

Son illərdə BDU-nun Kitabxanaçılıq-informasiya və Kitabşünaslıq sahələri üzrə də gözdən əlil tələbələrin təhsil aldığını qeyd edə bilərəm. Təbii ki, onlar üçün dərsliklər, dərs vəsaitləri yoxdur. Məhz belə şəraitdə gözdən əlil tələbələr çox böyük çətinliklərlə üzləşirdilər.

Gözdən əlil olan tələbələrlə apardığım sorğular nəticəsində məlum olur ki, onlar ən çox Türkiyənin “Boğaziçi” universitetinin labarotoriyasına daxil olur, ordan elektron kitabları öz telefonlarına və kompüterlərinə yükləyirlər. Hətta Türkiyədə bu cür insanlar üçün mobil operatorların xüsusi proqramları vasitəsilə gündəlik qəzetlərin mətnləri oxunur, çap əsərləri və s. nəşrlərlə tanış edilir.

Mənim üçün təəssüf doğuran odur ki, görmə üzrə əlil olan gənclərimiz türk operatorlarının dili ilə PDF olunmuş mətnləri dinləyirlər. Artıq onların ləhcəsində, diksiyasında türk dili formalaşmış, Azərbaycan dilində olan sözləri tapmaqda çətinlik çəkirlər. Çünki mətnlərin əksəriyyətini türk dilində əldə edə bilirlər.

Onlar üçün elektron kitabxanaların yaradılması, asan proqramlar vasitəsilə nəşrlərin əldə olunması üçün xüsusi proqramlar işlənib hazırlanmalıdır.

Bu gün ən vacib diqqəti cəlb edən problemlərdən biri gözdən əlil insanların işlə təmin olunması ilə bağlıdır. 2019-cu il 18 fevral 57 №li “Pedaqoji fəaliyyətlə məşğul olmağa yol verməyən xəstəliklər”in siyahısının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarının 33-cü və 34-cü bəndlərində: 33. “(H54.0) Binokulyar korluq (xüsusi təhsil müəssisəsi istisna olmaqla)” və 34. (H54.1) “Binokulyar ağır görmə pozuntusu (xüsusi təhsil müəssisələri istisna olmaqla)” bu cür qeyd olunur. Burda verilən məlumata əsasən bu şəxslər pedaqoji fəaliyyətlə məşğul ola bilməzlər. Bu qərar Azərbaycan Respublikasının Konstitusiyası ilə ziddiyyət təşkil edir. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinin VI hissəsinə görə Sağlamlıq imkanları məhdud olanlar, onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, bu Konstitusiayada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar. 35-ci maddənin 2-ci hissəsinə görə, “Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır”.

***Leyla Abasova,***
*Tarix üzrə fəlsəfə doktoru*

# “Nizami Gəncəvi İli” çərçivəsində silsilə tədbirlər keçirilir



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 5 yanvar tarixli Sərəncamı ilə qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq 2021-ci ili ölkəmizdə “Nizami Gəncəvi İli” elan edib**

***2021-ci ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 880 illiyi qeyd olunur.*** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 5 yanvar tarixli sərəncamı ilə qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq 2021-ci ili ölkəmizdə “Nizami Gəncəvi İli” elan edib. Bu istiqamətdə Bakı Dövlət Universitetində “Nizami Gəncəvi İli” ilə bağlı Tədbirlər Planı hazırlanmışdır. Tədbirlər Planına müvafiq olaraq, Nizami Gəncəvinin zəngin irsinin öyrənilməsi və tələbə gənclər arasında geniş təşviq edilməsi istiqamətində BDU-da bu günə qədər 20-dən çox elmi seminar, layihə, müsabiqə, dəyirmi masa, konfrans və s. həyata keçirilmiş, kütləvi informasiya vasitələrində işıqlandırılmışdır.

Akademik Rafael Hüseynovun iştirakı ilə elmi seminar, Xalq yazıçısı Elçin Əfəndiyevin “Əbədi müasirimiz - Nizami haqqında söz” mövzusunda onlayn mühazirəsi, “Azərbaycan ədəbiyyatında Nizami ənənələri”, “Nizami yaradıcılığında Novruz ənənələri”, “Nizami Gəncəvi əsərlərinin əlyazma nüsxələri dünya arxiv və kitabxanalarında”, “Nizami Gəncəvi yaradıcılığı rus ədəbiyyatşünaslığında”, “Nizami və Qərb dünyası”, “Nizami yaradıcılığında didaktik motivlər”, “Nizami və dünya ədəbiyyatı” və s. mövzularda elmi seminarlar, “Nizami yaradıcılığı dünya mədəniyyəti kontekstində” adlı onlayn elmi konfrans, “Nizaminin söz dünyası” adlı bədii qiraət layihəsi, “Nizami Gəncəvi irsinin öyrənilməsi” adlı layihə, Nizami Gəncəvinin “Yeddi gözəl” əsəri, “Sirlər xəzinəsi”, “Nizami “Xəmsə”si və mənzum romançılıq ənənələri” mövzusunda müzakirələr, Nizaminin “Yeddi Gözəl” əsəri haqqında dəyirmi masa, “Nizaminin hikmət xəzinəsi” adlı videoçarx, Nizaminin hikmət xəzinəsi” adlı videoçarx layihəsi, THİK-in təşkilatçılığı ilə esse və bədii qiraət müsabiqələri və s. dahi şairin bəşəriyyətə verdiyi töhfələrdən bəhs olunmuşdur.

Tədbirlər Planına müvafiq olaraq, il boyu “Nizami günləri”nin, beynəlxalq elmi konfrans, elmi seminar, dəyirmi masa, müsabiqə və sərgilər təşkil olunacaqdır.

# BDU-da “Nizami dünyası” kompozisiyası nümayiş olunub







***Avqustun 2-də Bakı Dövlət Universitetində “ASAN Könüllüləri” Təşkilatı və “Mədəniyyət carçısı” proqramının birgə təşkilatçılığı, BDU-nun dəstəyi ilə “Nizami dünyası” kompozisiyası nümayiş olunub.*** “Nizami Gəncəvi İli” çərçivəsində keçirilən tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi sədrinin müavini Ceyhun Salmanov, qurumun aparat rəhbəri Fuad Qarayev, ASAN Könüllüləri Təşkilatının sədri Emiliya Bayramova, BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev və digər struktur bölmələrinin rəhbərləri, ASAN könüllüləri və tələbələr iştirak ediblər.

Dahi Nizaminin “Xəmsə”si əsasında hazırlanmış kompozisiyanı ASAN könüllüləri hazırlayıb. Kompozisiyada Nizaminin “Xəmsə”sində yer alan beş poemanın motivləri əsasında parlaq səhnələr təqdim olunub, müxtəlif rəqs nömrələri səhnələrə xüsusi rəng qatılıb.

Kompozisiya nümayiş olunduqdan sonra Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi sədrinin müavini Ceyhun Salmanov, BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev, ASAN Könüllüləri Təşkilatının sədri Emiliya Bayramova çıxış edərək Azərbaycanda “Nizami Gəncəvi İli” çərçivəsində keçirilən tədbirlər və nümayiş olunan kompozisiya haqqında danışıblar. Ceyhun Salmanov çıxışında qeyd etmişdir ki, Nizaminin poeziyası əsrlərdən bəri öz tərəvətini daim saxlamış, əbədiyaşarlıq nümunəsi kimi dünya mədəniyyətinə, ədəbiyyatına ölməz incilər bəxş etmişdir. Onun xalqımızın mədəni sərvətinə çevrilən əsərləri Azərbaycanla yanaşı, dünya xalqlarının da tarixi keçmişini və adət-ənənələrini özündə əks etdirir. “ASAN Könüllüləri” Təşkilatı və “Mədəniyyət carçısı” proqramının birgə təşkilatçılığı, BDU-nun dəstəyi ilə nümayiş olunan kompozisiyanı gənclərin Nizami ilinə töhfəsi olduğunu bildirib, yaradılan şəraitə görə BDU rəhbərliyinə təşəkkür edib.

Əliş Ağamirzəyev BDU-da “Nizami Gəncəvi İli” ilə bağlı Tədbirlər Planına müvafiq olaraq, Nizami Gəncəvinin zəngin irsinin öyrənilməsi və tələbə gənclər arasında geniş təşviq edilməsi istiqamətində BDU-da həyata keçirilən layihələr, tədbirlər haqqında məlumat verib. Bildirib ki, “Nizami Gəncəvi İli” çərçivəsində bu günə qədər BDU-da 20-dən çox müxtəlif tədbir, konfrans, elmi seminar, dəyirmi masa və s. həyata keçirilib. Nümayiş olunan kompozisiyada rol alan tələbələri təbrik edib, onların səhnələrini yüksək qiymətləndirib. Tamaşanın sonunda könüllülərə sertifikatlar təqdim olunub.

# BDU TV “Nizami Gəncəvi İli” çərçivəsində videoçarxlar hazırlayır

***Jurnalistika fakültəsinin Tədris tele-radio studiyasında (BDU TV) jurnalistika ixtisasında təhsil alan tələbələr müntəzəm olaraq televiziya və radio verilişləri, süjetlər, tanıtım çarxları, sənədli filmlər hazırlayaraq yayımlayırlar***

***44 günlük Vətən müharibəsi dövründə studiyada hazırlanan silsilə proqramlar, “Şuşa bizi gözləyir”, “Xarıbülbül”, “Terrora yox!”, “Həsrətinə qovuşduq, “Xudafərin” kimi kompozisiyalarda rəşadətli ordumuzun apardığı haqq savaşına həsr olunmuşdur.*** BDU TV və Azərbaycan Könüllü Təşkilatları İttifaqının birgə layihəsi olan "Mətbuat səngəri" adlı silsilə maarifləndirici verilişlərdə torpaqlarımızın azadlığı uğrunda apardığımız haqq mübarizəmiz, rəşadətli ordumuzun parlaq qələbəsi, müharibədə medianın üzərinə düşən vəzifələr, informasiya müharibəsi, tələbə-gənclərin mövcud vəziyyətlə bağlı maarifləndirilməsi, Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması kimi mövzular əhatə olunmuşdur.

Cari ilin ilk yarısında tələbələrin iştirakı ilə müxtəlif mövzularda 20-dən çox videoçarx hazırlanmış və ictimaiyyətə təqdim olunmuşdur. Hazırda studiyada Azərbaycanda “Nizami Gəncəvi İli” çərçivəsində BDU üzrə Tədbirlər Planına müvafiq olaraq dahi şairin yaradıcılığına həsr olunmuş silsilə “Nizami Gəncəvi - 880” adlı videoçarxlar hazırlanır.

# 1 avqust - Azərbaycan əlifbası və Azərbaycan dili Günüdür

**Hər bir dili yaşadan və inkişaf etdirən onun xalqıdır. Dilimiz zəngindir, çox ahəngdar dildir, dilimizin söz ehtiyatı çox böyükdür. Şəxsən mən bu dili sevirəm.**

**Ulu Öndər Heydər Əliyev**

***Ümummilli Lider Heydər Əliyevin imzaladığı 9 avqust 2001-ci il tarixli 552 nömrəli fərmanla hər il avqust ayının 1-i ölkəmizdə Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilir.***

Dil millətin simasını səciyyələndirən amillərdən biri, onun milli sərvətidir. Millətin dilinin dövlət dili statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Respublikada dil siyasətinin formalaşdırılması, Azərbaycan dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi və nüfuzunun yüksəlməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Azərbaycan xalqının milli varlığının əsas rəmzi olan ana dilimizin saflaşdırılması və zənginləşdirilməsi istiqamətində mühüm addımlar atmış, Azərbaycan dilinin inkişafı və qorunması məqsədilə əhəmiyyətli sənədlər təsdiq etmişdir. Ölkəmizdə Azərbaycan dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması Ana dilimizin gözəl bilicisi, mahir natiq Uu Öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir.




Müstəqil Azərbaycanın 1995-ci ildə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili kimi təsbiti, onun rəsmi dövlət dili statusuna yüksəlməsi milli dövlətçilik tariximizin ən önəmli hadisələrindən biridir. Bundan sonra hökumət səviyyəsində Ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edilmişdir. "Dövlət dili işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli fərman, yeni əlifbaya keçidin 2001-ci ilin avqustuna kimi ölkəmizdə bütünlüklə təmin edilməsi Ulu Öndərin öz doğma dilinə bağlılığını bir daha təsdiq edir. 30 sentyabr 2002-ci il tarixində "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi istiqamətində daha bir addım olmuşdur.

Ana dilimizi qorumaq üçün böyük addımlar atan Ümummilli Liderin siyasi xətti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tərəfindən inamla davam etdirilir. Ölkə rəhbəri "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli 56 nömrəli, "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 9 aprel 2013-cü il tarixli 2837 nömrəli sərəncamlarına əsasən, latın qrafikalı yeni Azərbaycan əlifbası ilə dərsliklərin, elmi əsərlərin, lüğətlər və bədii ədəbiyyat nümunələrinin çap olunaraq istifadəyə verilməsinin, ölkədə dilçilik araşdırmalarının yaxşılaşdırılmasının təmin edilməsi milli ədəbi dilin daha da zənginləşməsi ilə yanaşı, dilçiliyin inkişafı baxımından da əhəmiyyətli olmuşdur. Prezident cənab İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 1 noyabr tarixli Fərmanı təməli Ulu Öndər tərəfindən qoyulan məqsədyönlü dil siyasətinin uğurlu davamıdır. Bütün bu sənədlər və bu istiqamətdə görülən işlər Ana dilimizin inkişafına ölkə başçısı tərəfindən göstərilən böyük qayğı və diqqətin təzahürüdür.

Ana dilimizin qorunması və qayğı ilə əhatə olunması müstəqil Azərbaycanın hər bir vətəndaşının müqəddəs borcudur.

# 2 Avqust - Azərbaycan Kinosu Günüdür

***2 avqust Azərbaycan Kinosu Günüdür. Ümummilli lider Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli Sərəncamı ilə avqustun 2-si kino işçilərinin peşə bayramı - Azərbaycan Kinosu Günü kimi qeyd olunur.***

Fransada keçirilmiş ilk kinoseansdan iki il sonra - 1898-ci il avqustun 2-də Bakı elmi-foto dərnəyinin katibi, naşir və fotoqraf Aleksandr Mişon özünün lentə aldığı "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin yolasalma mərasimi", "Qafqaz rəqsi" xronikal sənədli və "İlişdin" adlı bədii süjetlərini nümayiş etdirmişdi. Həmin gün milli kinonun yaranma günü sayılır.



Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumət bir çox mədəni-siyasi islahatlar keçirib. Xarici aləmlə diplomatik, mədəni–iqtisadi əlaqələr dünya kinosunun ilk nümunələrinin Bakıya gətirilməsinə və ictimai baxışlara təkan verib. Bunun nəticəsində Bakıda kinematoqrafiya həvəskarlarının sayı artmağa başlayıb. 1918-ci ildə onlar "Kinematoqrafiya və teatr qulluqçuları şurası"nda birləşiblər.

1923-1926-cı illərdə kinostudiya Birinci Dövlət Kinofabriki, sonradan AFKİ Kinofabrik ilə birləşdirilərək "Azdövlətkino", "Azərkino", "Azərfilm", "Azdövlətkinosənaye", "Bakı kinostudiyası", "Azərbaycanfilm" adlandırılıb. 1960-cı ildən Cəfər Cabbarlının adını daşıyır.

"Azərbaycanfilm"də indiyədək iki mindən çox müxtəlif növ və janrda film istehsal olunub. Onların bir hissəsi, o cümlədən "Arşın mal alan", "Şərikli çörək", "Ad günü", "Sevinc buxtası", "İstintaq", "Yaramaz" və başqaları Dövlət mükafatlarına, bir çox filmlər, o cümlədən "Ögey ana", "Uzaq sahillərdə", "Arşın mal alan", "Bizim Cəbiş müəllim", "Axırıncı aşırım", "Nəsimi", "Özgə vaxt", "Sarı gəlin", "Ovsunçu", "Buta", "Çölçü", "Nabat", "Axınla aşağı" və digərləri beynəlxalq və digər kinofestivalların mükafatlarına layiq görülüb.

Ümummilli lider Heydər Əliyevin mədəniyyət və incəsənət xadimlərinə, kino sahəsində çalışanlara göstərdiyi diqqət və qayğı hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin "Azərbaycanda kino sənətinin inkişaf etdirilməsi haqqında" 2007-ci il 23 fevral tarixli Sərəncamı milli kinomuzun maddi-texniki bazasının möhkəmləndirilməsinə yeni təkan verib. Dövlətimizin başçısının müvafiq Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı"nın icrasını təmin etmək məqsədilə bir çox mühüm işlər görülüb.

2018-ci ildə Azərbaycan kinosunun 120 illiyinin qeyd olunması haqqında Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən ölkəmizin hər yerində silsilə tədbirlər keçirilib. Azərbaycan kino sənəti ötən müddətdə əlamətdar hadisələrlə zəngin özünəməxsus inkişaf yolu keçərək, xalqımızın mədəni-mənəvi həyatında mühüm rol oynayıb.

Azərbaycan Kinosu Günü münasibətilə bütün kino ictimaiyyətini təbrik edirik.

# BDU tələbələri "Yay Fest" gənclər festivalında iştirak edirlər

***Azərbaycan Respublikasının Gənclər Fondu, "Cavan" Gənclər Hərəkatı İctimai Birliyi və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) təşkilatçılığı ilə keçirilən ölkənin ən böyük gənclər festivalı "Yay Fest" iki illik fasilədən sonra yenidən gəncləri sevindirir.*** Bakı Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatının idarə heyətinin üzvləri və fəal tələbələri növbəti dəfə "Yay Fest" gənclər festivalında iştirak şansı qazanıblar.

Bir ay ərzində keçiriləcək festival "Tələbələr", "İnnovasiya və Sahibkarlıq", "Vətənpərvərlik", "Könüllülər" və "Karyera və İnkişaf" olmaqla silsilə 5 düşərgə şəklində təşkil olunacaq.

Düşərgələrin hər birində vətənpərvərlik, tarix, incəsənət, sosial media, innovasiya və digər mövzularda gənclərlə müxtəlif təlim, seminar, mühazirələr keçiriləcək, dövlət və özəl qurumların nümayəndələri və eləcə də millət vəkilləri və təlimçilərlə görüşlər təşkil olunacaqdır.

Qeyd edək ki, düşərgədə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın COVID-19 pandemiyası ilə əlaqədar tövsiyələri nəzərə alınmaqla, yalnız COVID-19 pasportu olan şəxslərin iştirakı təmin edilib.



# ÜZEYİR HACIBƏYLİNİN MƏTBUATA DAİR NƏZƏRİ FİKİRLƏRİ

**Şirməmməd Hüseynov: "Üzeyir Hacıbəyov o cür xoşbəxt sənətkarlardan və ictimai xadimlərdəndir ki, zaman keçdikcə böyüklüyü, fəaliyyətinin mütərəqqi və humanist mənası daha parlaq şəkildə gözə dəyməkdədir. Onun zəngin irsi indi də diqqəti cəlb edir və mündəricə genişliyi, dərin mənası ilə bizi heyran buraxır".**

***Azərbaycan jurnalistikası tarixində elə şəxsiyyətlər var ki, onların mətbu fəaliyyətlərini araşdırmaqla tarixin konkret bir dövrünün həqiqət və gerçəkliklərini ortaya qoymaq mümkündür.*** Azərbaycan müstəqillik qazandıqdan sonra, yəni mənəvi dəyərləri qlobal surətdə yenidən qiymətləndirmə dövründə bu klassiklərə və onların yaradıcılıq fəaliyyətlərinə yenidən nəzər salınmağa başlanıldı. Yenidən latın qrafikasına keçid ədəbi-bədii irsin yenidən tədqiqi üçün imkanlar yaratmaqla həm mətbuatın, eləcə də publisistikanın istər mövzu-ideya, istərsə də sənətkarlıq baxımından yeni baxış bucağından araşdırılması zərurətini və hər şeyə obyektiv tarixi qiymət vermək kimi təxirəsalınmaz vəzifəni ortaya qoydu. Bu sırada əsərlərinin bir hissəsi nəşrlərdən kənarda qoyulmuş, bir hissəsi isə ixtisar edilmiş, 70 ildə jurnalistik və publisistik fəaliyyətinə nisbətdə musiqi fəaliyyəti daha çox qabardılan, mətbuatını və eləcə də dövlətini azad və demokratik, millətini isə savadlı və dünya xalqları içərisində öz yerini tutan görmək istəyən və bunun üçün mətbuatı tribunaya çevirən şəxslərdən biri-Üzeyir Hacıbəylinin irsinin öyrənilməsi də aktual bir problem olaraq tədqiqatçıların qarşısında duran mühüm bir vəzifə kimi qiymətləndirilməlidir.

Ü.Hacıbəylinin "Kaspi"dən tutmuş "Azərbaycan" qəzetinə qədər olan publisistikasını izləsək görərik ki, bu irsin ictimai xarakteri, janr palitrası, mövzu rəngarəngliyi və toxunduğu problemlərlə çağdaş dövrümüzün gerçəklikləri arasında bir bağlılıq, paralellik özünü göstərir. Yəni bu irslə müasir dövrümüz arasında maraqlı tarixi paralellər axtarmaqla xalqı, milləti düşündürən suallara cavab tapmaq, tarixi həqiqətlərə nail olmaq mümkündür. Bir sözlə, Ü.Hacıbəylinin həyat yolu və onun zəngin fəaliyyəti 100 il keçməsinə baxmayaraq bizim üçün reallıq, əsərləri günümüzün gerçəkliyi, dövr, zaman fərqli olsa da, qaldırdığı məsələlər eynisi ilə bizi bu gün də düşündürən problemlərdir.

Kəsərli qələm sahibi olan jurnalist, incə yumora malik dramaturq, gözəl pedaqoq, elmi nəzəri fikirləri ilə seçilən alim, yorulmaz ictimai xadim Üzeyir bəy Hacıbəylinin yaradıcılığının ana xəttini, qayəsini elə məhz istiqlalçılıq, millətçilik, vətənçilik-azərbaycançılıq təşkil edir. O, bu mövzuda məhəbbətlə yazır, düşündürür, fikirlərini əsaslandırır, tutarlı, dolğun faktlardan, mənbələrdən məharətlə istifadə edərək əsərləri ilə sanki bu günümüzə ayna tutur.

Kəskin üslubu ilə Molla Nəsrəddin məktəbini layiqincə davam etdirən Ü.Hacıbəyli insanların savadsızlığını, dini fanatizmi, imperializmi və müstəmləkə siyasətini, qadın hüquqsuzluğunu satirik yolla cəsarətlə tənqid etmiş, millətin varlığının əsas göstəricisi olan ana dili məsələsini ön plana çəkməklə məktəblərdə ana dilinin tədrisi ilə də bağlı özünü göstərən ciddi problemlərin millətin inkişafında yaratdığı mənfi təsirləri qabartmağa çalışmışdır.

Ü. Hacıbəyli millətin, məmləkətin xoşbəxtliyini mətbuatın azad və demokratik olmasında görürdü. Bu mənada onun "Kaspi"dən tutmuş "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni iqbal", "Açıq söz", "Doğru söz", "İttihad", "Tərcüman", "Təkamül", "Azərbaycan" qəzetlərində və "Molla Nəsrəddin" jurnalınadək publisistik fəaliyyəti əhəmiyyətli yer tutur. Bu mətbuat orqanlarında ədib



"Ordan-burdan", "O yan-bu yan", "O yandan-bu yandan", "Dərədən-təpədən", "Surna" və s. başlıqlar altında "Ü", "Üzeyir", "Bir kəs", "Filankəs", "Behmankəs", "Bisavad", "Avara", "Çi" və s. altmış beş adda gizli imzalarla dövrünün mühüm ictimai-siyasi, maarifçilik məsələlərinə dair çoxlu məqalə, kəskin felyetonlar və satirik miniatürlərini, korrespondensiyalarını dərc etdirmişdir. Ümumiyyətlə, Üzeyir bəyin mətbuat səhifələrində dərc olunan iki mindən çox publisistik yazısı millətin tərəqqi və təkamülündə böyük rol oynamış, onları Cümhuriyyətə gedən bir yola istiqamətləndirmişdir.

Ədibin publisistikasının məzmununa diqqət yetirsək görərik ki, dövrün bütün aktual problemlərini əhatə edən bu yazılar real həyatla bağlıdır. Bu publisistikada ictimai mühitin mürəkkəbliyi, cəmiyyətdə baş alıb gedən problemlər, bunları yaradan səbəblər, onların aradan qaldırılması yolları öz əksini tapır.

Mətbuat tarixinin tədqiqatçılarından olan Şirməmməd Hüseynov Ü. Hacıbəyli şəxsiyyətini belə qiymətləndirir: "Üzeyir Hacıbəyov o cür xoşbəxt sənətkarlardan və ictimai xadimlərdəndir ki, zaman keçdikcə böyüklüyü, fəaliyyətinin mütərəqqi və humanist mənası daha parlaq şəkildə gözə dəyməkdədir. Onun zəngin irsi indi də diqqəti cəlb edir və mündəricə genişliyi, dərin mənası ilə bizi heyran buraxır".

Jurnalistik fəaliyyətinə 1904-cü ildə "Kaspi" ilə başlayan ədibin qəzetin 1904-cü il sentyabr, oktyabr, noyabr, dekabr və 1905-ci il yanvar saylarında "U" imzası ilə 10 korrespondensiyası işıq üzü görmüşdür.

O, 1905-ci ildə öz ətrafına demokratik milli ruhlu ziyalıları toplayan "Həyat" qəzetində tərcüməçi olaraq çalışmağa başlayır. Tezliklə "Həyat"da tərcüməçi-mütərcim vəzifəsinə qəbul edilir. 1905-ci il sentyabrın 7-də qəzetin 59-cu sayında "mütərcimi Üzeyir" imzası ilə yazı dərc etdirir. Rus dilindən Azərbaycan türkcəsinə tərcümə edilmiş reportaj səciyyəli -"Avqustun 20, 21, və 23-də "Küçə müqatiləsi" sərlövhəli bu yazı, əvvəlcə Peterburqda çıxan "Novoye vremya", sonra isə ermənipərəst "Baku" qəzetində dərc olunmuşdu. Üzeyir bəyin "Novoye vremya" qəzetinin Bakıda məzuniyyətdə olan müxbirinin erməni-müsəlman davası zamanı şahidi olduğu hadisələrə, faktlara həsr olunmuş bu tərcüməni verməkdə məqsədi Qərb mətbuatının hadisələrə olan münasibətini oxuculara təqdim etmək idi.

"Həyat" (10 sentyabr 1905) qəzetində Üzeyir bəyin ilk müstəqil, çox ciddi, elmi-nəzəri və tarixilik baxımından əsaslandırılmış tənqidi bir yazısı-"Bir xanım əfəndinin bizlərə hüsni-təvəccöhi" sərlövhəli məqaləsi dərc olunur. Bu yazı 20 yaşı tamam olmamış bir gəncin Azərbaycan sevgisi və qətiyyəti ilə yoğrulmuş qələminin milli jurnalistikamızda yeni bir cığır açmasından xəbər verirdi.

"Peterburqskie vedemosti" qəzetinin 210-cu sayında alman mənşəli mühərrir Maqda Neymanın "qoca administratorun" dilindən: "əsrlərcə şəqavət və sui-rəftar üzrə güzəran edən və bundan naşi zatən şəqi və şərir olan Teymurləng ordusu nəslini (yəni biz türkləri-Ü.Hacıbəyli), Şimali Amerikanın "qırmızı dəri" vəhşilərini mədəniləşdirmək namümkündür" fikri ilə Qafqaz müsəlmanları haqqında yağdırdığı böhtan, yalan və iftiralarına azərbaycanlı balasının kəskin, tutarlı cavabı idi: "...Əcəba, bu tazə kəşfiyyat deyilmi? Necə ola bilər ki, ədalətli olan həqq sübhanəhu və taala tək bir türk tayfasını yaradanda onun xəmirəsində istedad qoymayıb, binəva türklərin xislət və təbiətlərini qabili-mədəniyyət və mərifət yaratmaya?...oxuduğunuz cəfəngiyatı dəstəviz edərək belə əhəmm məsələlərdən mübahisə etməklə özünüz heç, darüssəltənədə intişar olan "Peterburqskie vedemosti" kimi böyük bir cəridəni bədnam edirsiniz. Nə qayırdığınızdır?".

100 il keçməsinə baxmayaraq bu gün də Qərb və rus mətbuatı ermənilərin böhtan və iftira kampaniyalarında fəallıq göstərməklə Azərbaycan xalqı haqqında mənfi rəy formalaşdırmaqda davam edir.

*Ü.Hacıbəylinin "İrşad" qəzetindəki fəaliyyətini onun yaradıcılığının intibah dövrü kimi qiymətləndirmək olar. Ədibin bu qəzetdə çarizmin, çar məmurlarının, imperializmin mənfur müstəmləkə siyasətinin ifşasına, Şərq xalqlarının milli-azadlıq uğrunda mübarizəsinə, Qafqaz türklərinə qarşı kütləvi qırğınlara, məktəb və təlim üsullarına, ana dilinə olan münasibətə, əxlaq və tərbiyə problemlərinə, duma, seçki məsələlərinə, bu gün də Azərbaycan tarixinin böyük bir bəlası -yarası olan Qarabağ probleminə, erməni-müsəlman münaqişəsinə həsr olunmuş 300-dən artıq yazısı çap olunmuşdur. Bu yazılar Azərbaycan xalqının ictimai-siyasi düşüncəsinin, milli ideologiyanın formalaşmasında mühüm rol oynamışdır.*

"İrşad" fəaliyyət göstərdiyi təqribən iki il yarım ərzində qəzet iki dəfə bağlanmışdır ki, bunun da səbəbi Üzeyir bəyin yazdığı felyetonlar olub. Birinci dəfə o, "Stolipinin xəyalı"(1907, N100) felyetonunda Stolipinin xəyali "deputat seçimi"ni və çarizmi-irtica siyasətini kinayə ilə ifşa etmişdir ki, bu da qəzetin fəaliyyətini dayandırır. 1908-ci ildə "Nağıl"(1908, N89) felyetonu ilə 1905-ci il rus-yapon müharibəsində böyük dövlətlərin bir-birinə münasibətlərində olan ikiüzlü siyasətini açıb göstərir, milli-azadlıq uğrunda mübarizə aparan əhalinin konstitusiya hüquqlarının pozulması və azadlıqlarının buxovlanmasına qarşı çıxır, İvan obrazı ilə çar hökumətinin bu oyunlarda mövqeyini ifşa edir. Qəzet bağlandıqdan sonra M.Muxtarovun vəsaiti hesabına nəşr olunan "Tərəqqi" qəzetində, sonra isə "Həqiqət" (1909) qəzetində fəaliyyətini davam etdirir.

Ü.Hacıbəyli iştirak etdiyi mətbuat orqanlarının bir çoxunda həm jurnalist və publisist kimi, həm də redaktor kimi fəaliyyət göstərir ki, bu da Azərbaycan mətbuatı tarixində onun bir redaktorluq məktəbi yaratması kimi qiymətləndirilə bilər.

Ədibin mətbuatla bağlı, jurnalistikanın cəmiyyətdə yeri və rolu barədə maraqlı yazıları var ki, bu məqalələrdə təqdim olunan tezislər bugünkü yazarlar üçün bir proqram kimi qəbul edilməlidir. "Həqiqət" qəzetində (1909, N1) dərc etdirdiyi "Bəyani-məslək" proqram məqaləsi qəzetçilik üçün xüsusi əhəmiyyət kəsb edir. Bu gün mənasız yazılarla qəzet səhifələrini bəzəyən redaktorlara və dövr, zaman üçün əhəmiyyətsiz olan məsələlərdən bəhs edən yazılarının çap olunmamasından şikayətlənən yazarlara üz tutan Üzeyir bəy yazırdı: ""İrşad" və "Tərəqqi" qəzetlərində mühərrirlik etdiyimiz zaman bir takım qəzetçi sənətindən layiqincə müxbir olmayan məqalələrinin məzkur qəzetlərdə çap olunmadığından naşi bizə etiraz edib "Hürriyyəti-kəlama yol vermirsiniz" deyirdilər. Lakin bəzi şəxslər orasını unudurdular ki, hər bir qəzetin müəyyən bir məsləki olmalıdır. Ona binaən haman qəzetdə yazılan hər bir məqalə də haman məsləkə müvafiq olub onun, yəni o məsləkin qarelərə təlqini yolunda xidmət etməlidir".

Qəzetin müəyyən bir məsləki olmadığı halda, o qəzetdən az mənfəət görüldüyünü vurğulayan ədib məslək anlayışına aydınlıq gətirir, "Həqiqət"in məsləki haqqında məlumat verir:

"Söz yoxdur ki, xalq arasında mütəəsil oxunan bir şeyin oxuculara bir təsiri olur. Bu təsir sayəsində oxucuların fikri cümbüşə gəlib bir yol, bir məslək tutmaq istəyir. İndi əgər haman oxunulan şey qəzet olsun, jurnal olsun. Daim bir məslək üstündə qalıb o yoldan, o məsləkdən o yan-bu yana sapmazsa, oxucularının da fikri haman məsləkə alışıb, hər kəs müəyyən bir fikir, əqidə sahibi olar".

Bunu oxucular üçün mənəvi bir tərbiyə adlandıran ədib vətəndaşlıq mövqeyindən çıxış edərək qəzetin məsləkinin oxuculara böyük təsir etdiyini göstərir. Əgər qəzet bir məsləkə xidmət etməzsə, o halda oxucuları da məsləksizliyə, əxlaqsızlığa yönəltdiyini qətiyyətlə bildirir:

"Çünki məsləksizlik yolsuzluqdur, əxlaqın pozğunluğudur". "Məsləksiz qəzet müzür olan kimi məsləksiz insan da müzürdür" deyən ədib məsləki xüsusiyyətinə görə iki qrupa bölür: yaxşı və pis. Ədib cəmiyyət üçün təhlükəli olan məsləksiz insanı yaman məsləkli adamdan da zərərli hesab edir, yaman məsləkin müəyyən olduğu halda, onun zərərini rəf etməyə çarə tapmağın asan olduğunu göstərir.

***Aygün Əzimova,***
*Milli mətbuat tarixi kafedrasının dosenti*

# BDU-nun müəllim-tələbə heyətinin Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsinə ekskursiyası təşkil olunub

***"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) Bakı Dövlət Universiteti (BDU) müəllim-tələbə heyəti üçün Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsinə təcrübə-tanıtım səyahəti təşkil edib.***

"AzerGold" QSC-nin BDU ilə ilə təsdiq olunmuş fəaliyyət planına uyğun olaraq baş tutan səfər "AzerGold"un hasilat və istehsalat fəaliyyəti ilə əyani tanışlıq məqsədi daşıyır.

Əvvəlcə müəllim və tələbələrə müəssisə daxilindəki təhlükəsizlik qaydaları izah edilib, onlar xüsusi geyim dəstləri ilə təmin ediliblər.

Daha sonra qonaqların filiz emalı sahəsinə ekskursiyası təşkil edilib. Müəllim və tələbələrə müəssisədə yaradılan iş şəraiti, qiymətli metalların hasilatı, emalı prosesi, laboratoriyanın iş prinsipi haqqında ətraflı




məlumat verilib.

Görüşdə Geologiya fakültəsinin dekanı Məhluqə Məmmədova, dekan müavini İlqar Quliyev, faydalı qazıntılar kafedrasının dosenti Şəhla Abdullayeva, kafedranın laborantı Nigar Səttarzadə, tələbə və magistrantlar iştirak edib.

Qeyd edək ki, 20 dekabr 2019-cu il tarixində "AzerGold" QSC və BDU arasında əməkdaşlığa dair protokol imzalanıb. Protokolda qarşılıqlı razılıq əsasında ölkə ərazisində metal filizi yataqlarının mineral xammal bazasının öyrənilməsi, tədqiqi, kəşfiyyatı və idarə olunması, bu sahədə yeni texnologiyaların tətbiqi üzrə ixtisaslı kadr hazırlığı konsepsiyalarının birgə layihələndirilməsi və icrası nəzərdə tutulur.

## "Azərbaycanca-farsca şəkilli lüğət" adlı kitab işıq üzü görüb

***Şərqşünaslıq fakültəsinin İran filologiyası kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru Familə Nəcəfovanın "Azərbaycanca-Farsca şəkilli lüğət"adlı kitabı işıq üzü görüb.***

Müəllifin uzunmüddətli zəhmətinin məhsulu olan şəkilli lüğət ölkə miqyasında bu formatda ilk Azərbaycanca-farsca lüğət olmaqla yanaşı, nəfis tərtibatı, öz həcmi, mövzularının əhatəliliyi baxımından seçilir. Fars dilində söz ehtiyatının zənginləşdirilməsi prosesində sözün mənasının beyində təsəvvürünün yaradılması və nəticə olaraq anlayıb-qavrama vərdişlərinə nail olmaq məqsədi ilə tərtib olunan 240 səhifəlik lüğətə 143 mövzuda olmaqla 4300 söz, 100-ə yaxın söz birləşməsi və cümlə daxildir. Kitabda fars dilində olan sözlərin transkripsiyaları da təqdim edilib, bu yolla əlifbanı bilməyən oxucuların da lüğətdən istifadəsinə zəmin yaradılıb.




## BDU-nun dosenti ekoloji tədbirdə iştirak edib

***Ekologiya və torpaqşünaslıq fakültəsinin Bioekologiya kafedrasının dosenti Məhluqə Yusifova 30 iyul-1 avqust 2021-ci il tarixlərində Qəbələ şəhərində keçirilmiş REC-Caucasus, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və İPBES-in birgə təşkil etdiyi "Supporting Decision Making and Building Capacity to Support IPBES Through National Ecosystem Assessments" beynəlxalq layihəsinin müzakirəsinə həsr olunmuş "Ekosistemlərin qiymətləndirilməsi üzrə Milli görüş" adlı tədbirdə iştirak edib.***




Müxtəlif yerli və beynəlxalq təşkilatlardan olan nümayəndələrin qatıldığı bu görüşdə REC-Caucasus ekspertlərinin hazırladığı və Azərbaycanın dağ, su və meşə ekosistemlərinin müasir vəziyyəti, onlara olan antropogen təsirlər, biomüxtəliflik, ekosistem xidmətləri və onların qiymətləndirilməsini əks etdirən layihələrin ilkin variantı müzakirə edilib, iştirakçılar tərəfindən geniş diskussiyalar aparılıb.

## Aşıq Ələsgərin 200 illik yubileyi ilə əlaqədar silsilə tədbirlər keçiriləcək



***2021-ci ildə Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, qüdrətli söz ustadı Aşıq Ələsgərin anadan olmasının 200 illiyi tamam olur.*** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi ilə bağlı 18 fevral 2021-ci il tarixli Sərəncamına uyğun olaraq Bakı Dövlət Universitetində bu istiqamətdə Tədbirlər Planı işlənib hazırlanmışdır. Tədbirlər Planına müvafiq olaraq aşıq poeziyasını zirvələrə yüksəltmiş böyük söz ustadı Aşıq Ələsgərin zəngin poetik irsinin geniş tədqiqi və geniş təbliği istiqamətində BDU-da, BDU-nun Qazax filalı, BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollec və BDU-nun nəzdində "Gənc istedadlar" liseyində elmi konfrans, seminar, dəyirmi masa, sərgi və s. tədbirlərin keçirilməsi nəzərdə tutulub.

## BDU əməkdaşlarının hazırladığı qaz sensorları yüksək həssaslığa və stabil parametrlərə malikdir

Fizika fakültəsinin Fiziki elektronika kafedrasının əməkdaşları HF+spirt+metal duzu+ saxaroza tipli məhlulda elektrokimyəvi aşılandırma üsulu ilə p-Si lövhələri üzərində məsamələrinin ölçüsü 8-70 nm intervalında idarə edilə bilən nanoquruluşlu məsaməli-Si (MS və ya MSCD) təbəqələr almışdır. MSCD təbəqələrinin səthinə foto-elektrokimyəvi çökdürmə üsulu ilə CdS nanoquruluşlu nazik təbəqələrini çökdürülməklə p-Si/MSCD/CdS tipli strukturlar hazırlanmışdır. Müəyyən olunmuşdur ki, strukturların müxtəlif təbiətli qazlara (oksigen, spirt buxarı, azot, arqon, dəm qazı) qarşı həssaslığı məsamələrin ölçüsündən və texnoloji parametrlərdən asılı olaraq məqsədyönlü şəkildə idarə oluna bilir. Aşılandırmanın metal+saxaroza mühitində aparılması qaza qarşı həssaslığı artırmaqla bərabər, strukturların parametrlərinin stabilliyini də təmin edir.

## BDU- nun Enactus komandası finala vəsiqə qazanıb

25 avqust 2021-ci il tarixində Enactus Azərbaycan Milli Yarışmasının yarımfinal mərhələsi keçirilib. Bakı Dövlət Universitetinin Enactus komandası yarışda – "Green Bomb" və "Recycled Art" layihələri ilə çıxış edib. Komandamız II liqada yarışaraq yüksək bal toplayaraq final mərhələsinə vəsiqə qazanıb. Yarışmada 17 komanda iştirak edib və 4 komanda yüksək nəticə göstərərək finala vəsiqə qazanıblar.

Qeyd edək ki, avqustun 26-da Milli yarışmanın final mərhələsi keçiriləcək və qalib komanda Misirdə baş tutacaq Dünya Enactus Kuboku yarışmasında ölkəmizi təmsil edəcək.

# Universitetdə sosial layihələr davam edir

***BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə cari ilin ilk 6 ayı ərzində tələbələr arasında maarifləndirmə işinin aparılması, respublika və beynəlxalq müsabiqələrdə, olimpiadalarda və sərgilərdə istedadlı və yaradıcı tələbələrin iştirakının təmin edilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilib.***

Vətən müharibəsi dövründə BDU THİK-in fəalları şəhidlik zirvəsinə ucalmış məzunların ailələri və məzun olan qaziləri ziyarət edərək onlara maddi-mənəvi dəstək göstərmiş, Azərbaycan Respublikası Silahlı Qüvvələrinə Yardım Fonduna 4000, Qarabağ Dirçəliş Fonduna 2500 manat ianə etmişdir.

BDU THİK tərəfindən 6 ay ərzində sosial layihələr çərçivəsində müxtəlif mövzularda 100 dən çox onlayn tədbir, 6 müsabiqə, təlim və debatlar təşkil edilmişdir. Əsasən 1-ci kurs tələbələrini əhatə edən maarifləndirici "Gənc İntellektuallar Məktəbi" layihəsi təşkil edilərək müxtəlif aktual mövzuları əhatə edən 10 videoçarx hazırlanmışdır. Tələbə təşkilatı "Ümumdünya yer günü" ilə əlaqədar Universitetin həyətyanı sahəsində və BDU tələbə yataqxanasının ərazisində ağacəkmə aksiyası keçirib. Tələbələrin iştirakı ilə keçirilən aksiyada 200-dən çox ağac əkilib.

Hazırda BDU THİK-in sosial layihələri davam edir. İstedadlı və yaradıcı tələbələrin üzə çıxarılması və onlara dəstək göstərilməsi istiqamətində TEDx Club, Gənc rəssamlar dərnəyi, Genius Club, Sport Club, Book Club, Qiraət klubu, Teatr qrupu, Şahmat və dama klubu, Kino klubu kimi tələbə klubları fəaliyyətini genişləndirir.

# "Nə? Harada? Nə zaman?" bilik yarışması keçirilib

***Avqustun 12-də Bakı Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən "İntellektual Oyunlar Klubu" açıq havada "Nə? Harada? Nə zaman?" bilik yarışması keçirib.***

Yarışmada 4 komanda birincilik üçün mübarizə aparıb. Komandalara hər hissədə 12 sual olmaqla 24 sual təqdim olunub. 24 sualın sonunda qalib müəyyənləşmədiyi üçün əlavə "tay-brek" sualları təqdim edilib və "Gələcək" komandası yarışmanın qalibi olub.

# Təhsildə Yeni Çağırışlar II Beynəlxalq Forumu keçiriləcək




Oktyabrın 1-i Təhsildə Yeni Çağırışlar II Beynəlxalq Forumu keçiriləcək.

Forum "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platforması və Təhsil İnstitutunun təşkilatçılığı, Təhsil Nazirliyi, Azərbaycan Gənc Müəllimlər Assosiasiyası, "Bir könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin dəstəyi ilə onlayn təşkil ediləcək.

Forumun əsas məqsədi təhsildə yeni çağırışları müzakirə etmək və bununla təhsildə keyfiyyətin daha da yüksəldilməsinə nail olmaqdır. "Təşəbbüsdən tətbiqə" başlığı altında baş tutacaq Forum virtual təhsil, beynəlxalq qiymətləndirmə, liderlik, XXI əsrin bacarıqları və davamlı inkişaf mövzularını əhatə edir.

Beynəlxalq Müəllimlər Gününə həsr olunacaq Forum "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"i və sənədin "XXI əsrin tələblərinə uyğun təhsil" istiqamətini rəhbər tutur.

Forumda iştirak ödənişsizdir. Forumla bağlı məlumatlar sosial şəbəkədə paylaşılacağı üçün yalnız "T-Network"un "Facebook" və ya "İnstagram" səhifəsini bəyənən iştirakçıların müraciəti təsdiqlənəcək və onlara iştirak linki göndəriləcək.

Sonda iştirakçılara beynəlxalq sertifikat da veriləcək.

# Tələbə Gənclər Təşkilatı dil təlimlərinə başlayıb



***Bakı Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatı avqustun 4-dən tələbələr arasında xarici dil biliklərinin inkişaf etdirilməsi istiqamətində açıq havada təlimlərə başlayıb.*** İlk təlim alman dili üzrə keçirilib. Təlimin məqsədi tələbələrin alman dilində danışıq səriştəsinin artırılması, bacarıqlarının təkmiləşdirilməsi, əldə etdikləri dil biliklərinin inkişaf etdirilməsidir. Təlimin ilk günündə təlimçi - Filologiya fakültəsinin III kurs tələbəsi Murad Məmmədov təlim iştirakçılarına alman dilinin qrammatikası, gündəlik danışıqda ən çox istifadə edilən sözlər haqqında məlumat verib. Tələbələrin alman dilinin qrammmatikası, yeni sözlərlə bağlı suallarını cavablandırıb.

Qeyd edək ki, təlimlərin həftədə iki dəfə olmaqla müxtəlif dillər üzrə davamlı şəkildə həyata keçirilməsi nəzərdə tutulub.

# Tələbələr arasında açıq havada şahmat turniri keçirilib

***Avqustun 12-də Bakı Dövlət Universitetinin İdman-Sağlamlıq Mərkəzi və Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə tələbələr arasında açıq havada şahmat turniri keçirilib.*** 12 avqust - Beynəlxalq Gənclər Gününə həsr olunmuş turnirin qalibi Hüquq fakültəsinin II kurs tələbəsi Fəxrəddin Şəfiyev olmuşdur. İkinci yerdə Biologiya fakültəsinin IV kurs tələbəsi Məhəmməd Mirzəyev, üçüncü yerdə isə Tarix fakültəsinin III kurs tələbəsi Murad Hüseynli qərarlaşıb.

Turnirin qaliblərinə diplomlar təqdim olunub.

# BDU məzunları ilə fəxr edir



***Fuad Mehrəliyev 2008-ci ildə Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsinin bakalavriat təhsil səviyyəsini fərqlənmə diplomu ilə bitirmişdir.***

2010-cu ildən təhsilini İsveçin Umea Universitetində magistratura təhsil səviyyəsində "Turizm" ixtisası üzrə davam etdirmiş və 2012-ci ildə universiteti yüksək nəticələrlə bitirmişdir. 2012-2016-cı illərdə BDU-da müəllim kimi fəaliyyət göstərmişdir.

F.Mehrəliyev 2016-cı ildə Honq Konq Politexnik Universitetinin doktorantura pilləsinə daxil olmuş və 2019-cu ildə "Turizm" ixtisasında fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün "Turizm və qonaqpərvərlikdə sosial medianın qüvvəsi: nəzəri əsasları və empirik sübutları" mövzusunda dissertasiyanı müdafiə etmişdir. 2018-ci ildə ABŞ-ın Florida Universitetinə dəvət olunaraq 3 ay qonaq professor kimi fəaliyyət göstərmişdir. Hazırda Honq Kong Open Universitetində araşdırma üzrə yardımçı professor vəzifəsində çalışır.

F.Mehrəliyev müxtəlif beynəlxalq səviyyəli konfranslarda məruzələr ilə çıxış etmişdir. O, 17-dən çox elmi əsərin müəllifidir. 15 məqaləsi Clarivate Analytics şirkətinin Web of Science bazasına daxil olan yüksək impakt faktorlu elmi jurnallarda dərc olunmuşdur. "International Journal of Bibliometrics in Business and Management" jurnalının icraçı redaktoru və "International Journal of Contemporary Hospitality Management" jurnalının redaktorlar heyətinin üzvüdür.

Məzunlarımızla fəxr edir və gələcək fəaliyyətlərində uğurlar arzu edirik.

# "Bitkiləri öyrənirəm" kitabı işıq üzü görüb

***Bilologiya fakültəsinin 2021-ci il məzunu Dürdanə Rəcilinin müəllifi olduğu "Bitkiləri öyrənirəm" seriyasından ilk kitabı işıq üzü görüb.***

Pomidor haqqında maarifləndirici və faydalı məlumatlar toplanmış kitabda bələdçi dost vasitəsi ilə uşaqlarda təbiətə maraq yaratmaq və canlı aləm mövzusunda biliklərini artırmaq üçün faydalı məlumatlar təqdim olunur. Pomidorun faydaları, tarixçəsi kimi öyrədici bölmələrlə yanaşı "Rəngləmə", "Sağlam əyləncə" kimi bölmələr uşaqların sağlam və əyləncəli vaxt keçirməsini üçün nəzərdə tutulmuşdur.

Kitabda uşaqlar üçün pomidorun faydaları, günümüzə qədər necə gəlib çatması ilə bərabər onun yetişdirilməsi və eləcə də inkişaf mərhələləri haqqında məlumat əldə edə biləcəklər. "Bitkiləri öyrənirəm" seriyası üzrə Dürdanə Rəcilinin müəllifliyi ilə gələcəkdə nəşr olunacaq kitablar Biologiya elminin digər sahələrini əhatə edəcək və müxtəlif xarici dillərə tərcümə olunacaqdır. Kitabdakı rəsmlərin müəllifi Biologiya fakültəsinin IV kurs tələbəsi Məhəmmədəli Məmmədlidir.

# 12 avqust - Beynəlxalq Gənclər Günüdür

**“Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir” - deyən Ulu Öndər sağlam düşüncəli gənc nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edirdi.**

***12 avqust - dünyada Beynəlxalq Gənclər Günü kimi qeyd olunur. 1998-ci il avqustun 8-dən 12-dək Lissabonda gənclərlə iş üzrə nazirlərin iştirakı ilə keçirilən beynəxalq konfransda hər il avqustun 12-nin dünyada Gənclər Günü kimi qeyd olunması barədə qərar qəbul edilmişdir. Bu əlamətdar günün keçirilməsində məqsəd gənclərə lazımi diqqət və qayğı göstərmək, onların nailiyyətlərini təbliğ etmək, cəmiyyətin bütün sahələrində gənclərin iştirakına təkan vermək, onların hərəkətverici qüvvə kimi innovativ ideyalarının inkişaf etdirilməsinə dəstək göstərməkdir.***



Azərbaycanda dövlət gənclər siyasəti gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşan, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verən, bu siyasəti müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirən Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

“Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir” - deyən Ulu Öndər sağlam düşüncəli gənc nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edirdi. Bu vəzifənin icrası məqsədi ilə 1994-cü il iyulun 26-da müstəqil Azərbaycanda gənclər siyasətini həyata keçirilməsində mühüm rol oynayan dövlət qurumu - Gənclər və İdman Nazirliyi yaradılmış, gənc nəslin mənəvi tərbiyəsi və fiziki inkişafının, təhsili və peşə yönümünün, mütəşəkkil formada yetişdirilməsinin, dövlət quruculuğunda fəal iştirakının təmin edilməsi, gənclər təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi istiqamətində lazımi tədbirlər görülmüş, müxtəlif dövlət proqramları hazırlanmış və uğurla həyata keçirilmişdir.

Son illərdə ölkədə aparılan kadr islahatları, gənc kadrların dövlət strukturlarında məsuliyyətli vəzifələrə təyinatı müasir dövrdə ölkəmizdə dərin bilikli və yüksək bacarıqlı gənc kadrlar korpusunun formalaşmasında, əsasən xaricdə təhsil almış və ya təcrübə keçmiş gəncləri cəlb etməklə idarəçilik sistemində beynəlxalq təcrübənin öyrənilməsi və innovativliyin təmin edilməsində mühüm əhəmiyyət kəsb edir. Ölkənin kadr potensialında aparılan gəncləşmə siyasəti bu gün bir çox sahələrdə oduğu kimi, təhsil sahəsində də öz bəhrəsini verməkdədir.

Bu gün gənclərin təşkilatlanması üçün zəruri iqtisadi, hüquqi və təşkilati imkanlar yaradılıb. Hazırda paytaxt və bölgələrdə yüzlərlə gənclər təşkilatı fəaliyyət göstərir. Müstəqilliyin ilk illərində gənclərin əsasən beynəlxalq qurumlar tərəfindən dəstəklənən təşəbbüslərinə son illərdə dövlət büdcəsindən maliyyələşən fondlar və digər təsisatlar vasitəsilə dəstək verilir. Gənclər arasında könüllülük fəaliyyəti inkişaf edir. Müxtəlif könüllülük proqramları vasitəsilə onların liderlik bacarıqları artırılır. Çoxşaxəli fəaliyyət istiqamətləri üzrə təcrübə toplaması, müəyyən mənada məşğulluğu, işgüzar çevrə yarada bilməsi təmin edilir.

*24 minlik tələbə kontingentinə malik qocaman universitetin - Bakı Dövlət Universitetinin əsas hədəfinin ölkəmiz və dövlətimiz üçün yüksəkixtisaslı kadr hazırlığı olduğunu nəzərə alaraq, müxtəlif növ tədbirlərin, o cümlədən tələbələrin təşkilatçılığı və iştirakı ilə dövlət və milli bayramların, yubiley və əlamətdar günlərin qeyd edilməsi, elmi və mədəni-kütləvi tədbirlərin, bilik yarışları və müsabiqələrin, sərgi və təqdimatların təşkili, Vətən Müharibəsi qaziləri ilə görüşlərin keçirilməsi, Universitetin şəhidlik zirvəsinə ucalmış məzunların ailələrinə diqqət və qayğının göstərilməsi, tanınmış elm və mədəniyyət xadimləri, görkəmli ziyalılarla mütəmadi görüşlər və yaradıcılıq gecələrinin keçirilməsi, mədəni və tarixi yerlərə ekskursiyaların, xeyriyyə tədbirlərinin təşkili, gənclər arasında sosioloji sorğuların keçirilməsi, tələbə klubları və yaradıcılıq dərnəklərinin yaradılması, digər ali məktəblərdə təhsil alan tələbələrlə dostluq əlaqələrinin qurulması, digər maarifləndirici tədbirlərin təşkili və keçirilməsi uğurla davam edir. BDU-nun tələbələri ölkə gəncliyinin hərəkətverici qüvvəsi kimi dövlət gənclər siyasətinin universitet hüdudlarında uğurla həyata keçirilməsində fəal iştirak edirlər.*

Qürurverici haldır ki, müasir Azərbaycanın gənc nəsli yüksək vətənpərvərlik ruhunda, vətəninə və dövlətinə bağlı, milli mənəvi dəyərləri daima uca tutan nəsildir. Bunun əyani təzahürüdür ki, 2020-ci ilin sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən Müharibəsində yüksək milli ruhlu gənclərimiz Ali Baş Komandanımızın əmri ilə torpaqlarımızı işğaldan azad edərək 30 illik həsrətə son qoydular. 44 gün davam edən Vətən Müharibəsində qəhrəmanlıq göstərən gənclərin şücaəti, mücadiləsi xalqımıza qələbə sevincini yaşatdı. Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən bu tarixi gündə gənclərimiz bütün dünyaya nəyə qadir olduqlarını nümayiş etdirdilər.

***"Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib." - deyən Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışlarında qeyd edirdi ki: "Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi."***

Belə vətənpərvər, qəhrəman və məğrur gəncləri olan Vətən heç vaxt yenilməyəcək, daim öz şan-şöhrətini və qüdrətini qoruyub saxlayacaq və gələcək nəsillərə ötürəcəkdir. Əminik ki, vətənpərvər gənclərimiz mənfur düşməndən azad edilmiş müqəddəs torpaqların bərpa edilməsində və çiçəkləndirilməsində də, burada müasir infrastrukturun qurulmasında da böyük xidmət və rəşadət göstərəcək, ölkə başçısının uğurla həyata keçirdiyi gənclər siyasətinə öz layiqli töhfələrini verəcəklər.

**Ramin Səmədov,**
*Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri*

# Azərbaycan tarixində bir ilk! Bakı Dövlət Universiteti dünya universitetlərinin reytinq siyahısında yer alıb

**Azərbaycan Universitetləri arasında ilk dəfə olaraq Bakı Dövlət Universiteti dünyanın ən nüfuzlu reytinq qurumlarından olan “Times Higher Education” üzrə 2022-ci il dünya universitetlərinin reytinq siyahısında yer alıb.**

# Ənənəvi təhsilə qayıtmağın əsas şərti

***Təhsil Nazirliyi vaksinasiyadan keçməyən təhsil işçilərinə xəbərdarlıq edib. Məlumatda yeni tədris ilində ənənəvi təhsilə qayıdışın əsas şərtinin təhsil işçilərinin vaksinasiyası ilə bağlı olduğu qeyd olunub.***

Bildirilir ki, təhsil işçiləri cari ilin yanvar ayından həyata keçirilən vaksinasiya prosesinə ilk qoşulanlardandır: "Hazırda təhsil işçilərinin 80 faizdən çoxu COVID-19 əleyhinə vaksinasiyadan keçib. Bununla belə yeni tədris ilinin başlanmasınadək təhsil işçilərinin daha çox sayda vaksinasiya prosesinə qoşulması vacib məsələdir".

"Vaksin olunmayan təhsil işçilərinin təhsil müəssisələrinə girişinə icazə verilməyəcək. Bütün təhsil müəssisələrində çalışan işçilər özlərinin və ətrafdakıların sağlamlığı üçün vaksinasiya prosesində aktiv iştirak etməlidirlər. Həmçinin vaksin əleyhinə əks göstəriş arayışı təqdim edən təhsil işçiləri rəsmi qaydada “Əks göstəriş sertifikatı”nı təqdim etməlidirlər. Təhsil Nazirliyi olaraq bütün təhsil işçilərini virusdan qorunmaq üçün peyvənd olunmağa və sanitar-gigiyenik normalara əməl etməyə çağırırıq" - deyə nazirliyin məlumatında qeyd olunub.

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Allahverdi Məmmədli, Cahangir Məmmədli, Samir Mirzəyev

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.
**Çapa imzalanıb:** 31.08.2021
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08